**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos.Əhmədov Fariz Saleh**

**"___" ____________ 2019-cu il**

**"Azərbaycan Respublikasında iqtisadi artımın makroiqtisadi aspektləri"**

**Mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:____ 060404 "İqtisadiyyat"**

**İxtisaslaşma: "İqtisadiyyatın hüquqi tənzimlənməsi"**

**Qrup: 30**

**Magistrant**
**Süleymanov Anar İsə**

**_____________imza**

**Elmi rəhbər**
**i.e.d.,prof.Məhiş Alış oglu Əhmədov**

**______________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d.,b.m.Hümbətova Suqra İnqilab**

**______________________imza**

**Kafedra müdiri**
**i.e.d.,prof. Kəlbiyev Yaşar Ataxan**

**_____________________imza**

**BAKI – 2019 il**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**“Azərbaycan Respublikasında iqtisadi artımın makroiqtisadi aspektləri” mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Süleymanov Anar İsə oğlu**

**BAKI – 2019 il**

**The aspects of macroeconomic increase in the economy of the Republic of Azerbaijan**

**Summary**

**Keywords: economic growth, macroeconomic aspects, near perspective, oil strategy.**


**Macroeconomic aspects of macroeconomic aspects of economic growth in the Republic of Azerbaijan, studying the macroeconomic aspects of economic growth in Azerbaijan in the post-oil era, achieving high macroeconomic growth in macro-level economic development of our country, fostering fiscal sustainability and effective monetary to analyze the normative-legal basis of the state mechanism to achieve a high economic growth by analyzing and evaluating the regulatory framework based on changing conditions and requirements, revealing the features, and the concept of Strategic Roadmaps, which was approved by Presidential Decree of December 6, 2016, in other words, the main purpose, the target**

**The main purpose of the master dissertation work is to make relevant proposals, recommendations and generalizations to increase the effectiveness of the state's macroeconomic policy to ensure the sustainability of the economic growth by taking into account the quality changes in the post-oil phase of the economic growth, factors, and changes in the institutional base of our country. and evaluation. In accordance with the main purpose of the magist dissertation work, the following research directions will form the main line: to evaluate the current level of socio-economic development of our country, its scientific and technical potential and opportunities to move in the near future; long-term macroeconomic and financial stability; identify ways and means of second-generation structural reform; modernization of key development agencies; taking into account the socio-cultural capital of the country, building a model of local development that will enable the establishment of a national consensus scheme to achieve sustainable development.**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AB** | Avropa Birliyi |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AMEA** | Azərbaycan Milli Elmlər Akademiyası |
| **ARK** | Azərbaycan Respublikası Konstitusiyası |
| **AR** | Azərbaycan Respublikası |
| **BMT** | Birləşmiş Millətlər Təşkilatı |
| **DB** | Dünya Bankı |
| **Dİİ** | Dünya iqtisadi inkişaf |
| **ETT** | Elmi-texniki tərəqqi |
| **İEÖ** | İnkişaf etmiş ölkələr |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkələr |
| **İİİ** | İnsan inkişafı indeksi |
| **İKT** | İnformasiya Kommunikasiya Texnologiyaları |
| **Mily. man** | milyon manat |
| **Məs.** | Məsələn |
| **və s.** | və sair |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **GZIT** | Güclü-zəif imkanlar və təhlükələr |

## M Ü N D Ə R İ C A T

**G İ R İ Ş.........................................................................................................................7**

**I Fəsil. POST-NEFT MƏRHƏLƏSINDƏ IQTISADI ARTIMIN TƏMIN EDILMƏSININ TƏDQIQININ NƏZƏRI-METODOLOJI ƏSASLARIM**

**1.1** Müasir dövrdə ölkəmizin davamlı iqtisadi artım konsepsiyasına kecidinin təmin edilməsinin dövlət mexanizmi və konseptual əsasları......................................................14

1.2 Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarının perspektivi üzrə strateji yol xəritəsinin başlıca hədəf və məqsədlərinə uygun olaraq davamlı inkişafın təmin edilməsinin makroiqtisadi əsasları.........................................................................................................................29

1.3 Post-neft dövründə Azərbaycanda davamlı inkişaf modelinə kecidinin dünya təcrübəsi və onlardan Azərbaycanda istifadə imkanları.........................................................................33

**II Fəsil. MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA İQTİSADİ ARTIMIN AMİLLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN SİSTEMLİ TƏHLİLİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ**

2.1. Post-neft mərhələsində ölkəmizdə iqtisadi artımın zəif, güclü imkan və təhdidlərin GZİT təhlili və dəyərlədirilməsi..........................................................................................39

2.2. Post-neft mərhələsində qeyri-neft sektorunun və onun ixracının artırılması iqtisadi artımın mühüm mənbəyi kimi.........................................................................................................47

2.3. Müasir dövrdə iqtisadi artımın təmin edilməsində dayanıqlı fiskal mexanizmin və effektiv monitar siyasətin təmin edilməsinin əsas istiqamətləri................................................................54

**III Fəsil. MİLLİ İQTİSADİYYAT VƏ ONUN ƏSAS SEKTORLARINDA STRATEJİ YOL XƏRİTƏSİNİN KONSEPSİYASINA UYGUN OLARAQ YAXIN GƏLƏCƏKDƏ ÖLKƏMİZDƏ İQTİSADİ ARTIMIN TƏMİN EDİLMƏSİNİN ƏSAS İSTİQAMƏTLƏRİ**

3.1. Post-neft mərhələsində iqtisadi artımın təmin edilməsinə yeni yanaşmanın prioritetləri.........................................................................................................................63

3.2. Post-neft mərhələsində yüksək iqtisadi artımın təmin edilməsinin tənzimləmə mexanizminin təkmilləşdirilməsinin əsas istiqamətləri...............................................................................70

3.3. Yaxın perspektivdə yüksək iqtisadi artımın təmin edilməsi ilə baglı reallaşdırılan makroiqtisadi siyasətin təkmilləşdirilməsinin prioritetləri.........................................................75

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................................................83**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT.......................................................................86**

ƏLAVƏLƏR.........................................................................................................................89

Cədvəllərin siyahısı.............................................................................................................91

Qrafiklərin siyahısı.............................................................................................................91

# G İ R İ Ş

**Mövzunun aktuallığı.** İyirminci əsrin sonuncu qərinəsində Azərbaycan müstəqil suveren dövlətə cevrilməklə dünya təsərrüfat sisteminin müstəqil bir subyektinə cevrildi. Ölkəmiz bu zaman azad iqtisadi sistemə kecməyi və müvafiq sistem dəyişikliklərini qısa bir zaman kəsiyində həyata kecirməyi strateji bir vəzifə kimi qarşəya qoydu. Ölkəmizin müstəqil dövlətə cevrilməsi sayəsində kecmiş SSRİ-nin daxilində bir respublika kimi təkrar istehsal prosesini həyata kecirən Azərbaycan artıq öz ərazisində müstəqil təkrar istehsalı həyata kecirən bir qurum kimi formalaşmaga başladı. Məlumdur ki, belə bir şəraitdə Azərbaycanın malik oldugu iqtisadi potensialdan tam və səmərəli istifadə etmək mümkün deyildi. Cünki, ənənəvi istehsal və kooperasiya əlaqələri qırılmış, habelə inzibati amirlik sisteminin dagılmasına baxmayaraq bazar iqtisadiyyatının normativ-hüquqi, qanunvericilik bazası olmadıgına görə iqtisadiyyatda hərc mərclik baş verirdi. Nəticədə 1991-1994-cü illərdə istehsalın həcmi 3 dəfədən cox aşagı düşmüş, hiperinflyasiya tügyan edirdi, işsizlik özünün ən kritik həddinə catmışdı, məşgullugun artırılması imkanları əslində yox idi. İqtisadi artımı bərpa etmək ücün məlumdur ki, iqtisadiyyata kifayət qədər investisiya qoymaq lazım idi. Bu zaman ölkənin yox dərəcəsində olan maliyyə imkanları istehsalı bərpa etmək, yeni istehsal gücləri yaratmaga, iş yerləri acmaga imkan vermirdi.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə yenidən hakimiyyətə gəlməsi nəticəsində qısa bir zaman kəsiyində ölkəmizdə makroiqtisadi sabitliyi təmin etmək ücün cox ciddi, bəzən də sərt eksordinar sabitləşmə tədbirləri həyata kecirildi. Bazar iqtisadi sisteminin normativ-hüquqi, qanunvericilik və institusional bazasını yaratmaq məqsədi ilə müvafiq qanunlar, normativ-hüauai aktlar qəbul olunmaga başlandı. Həyata kecirilən tədbirlər nəticəsində artıq 1996-cı ildə ölkəmizdə istehsalın aşagı düşməsinin, inflyasiyanın artmasının qarşısı alındı və hətta bir faiz iqtisadi artıma nail olundu.

Təhlil göstərir ki, ölkəmizin sistemin böhranından cıxışında və tədricən iqtisadi artım mərhələsinə daxil olmasında 1994-cü ildə dünyanın aparıcı

şirkətlərinin iştirakı ilə ölkəmizdə "Əsrin müqaviləsi"nin baglanması ölkəmizə kifayət qədər güclü maliyyə, investisiya artımına səbəb oldu.

Neft strategiyasının ugurla reallaşdırılması nəticəsində artıq 1998-ci ildən tədricən iqtisadi artımın bərpası və sürətlənməsi müşahidə olunurdu. Onu da qeyd etmək lazımdır ki, neft strategiyasının reallaşdırılması nəticəsində ölkəmizin elmi-texniki, maliyyə potensialı kəskin artdı, kifayət qədər nəqliyyat kommunikasiya, infrastruktura yaradıldı ki, bu da ölkəmizin dünya bazarına cıxışı imkanlarını kəskin artırdı.

Artıq 2000-ci ildən başlayaraq ölkəmizdə neft hasilatının artması, neft gəlirlərinin nəinki bu sahənin inkişafına eləcə də qeyri-neft sektorunun inkişafına, əhalinin sosial vəziyyətinin yaxşılaşmasına təsiri gücləndi. Dünya təcrübəsindən məlumdur ki, neft-qaz ehtiyatları milli iqtisadiyyatın inkişafı ücün zəruri ilkin şərt olsa da, hec də bütün hallarda o ölkənin dinamik və davamlı inkişafına gətirib cıxarmır. Ancaq Azərbaycanda ulu öndər Heydər Əliyevin reallaşdırdıgı düşünülmüş, effektiv və obyektiv iqtisadi siyasət nəticəsində azərbaycanın neft gəlirləri ölkəmizin iqtisadi artımının hərəkətverici qüvvəsinə, lokomativinə cevrildi. Bu məqsədlə 1999-cu ildə yaradılmış Neft Fondunun formalaşması prinsipləri və onun istifadə mexanizminin Azərbaycanın iqtisadi inkişafındakı rolu müstəsna qiymətləndirilməlidir.

İqtisadi müstəqilliyimizin ilkin mərhələsində yaradılmış elmi-texniki, maliyyə, iqtisadi, sosial-kadr potensialı, infrastruktura ölkəmizə tədricən iqtisadi artımın resurs amilindən qeyri-neft sektorunun, insan kapitalının inkişafı hesabına iqtisadi artıma kecməyi əməli bir vəzifə kimi qarşıya qoymaga imkan verdi. Ölkə prezidentinin cıxışında qeyd olundugu kimi Azərbaycan 2015-ci ildən qeyri-neft mərhələsinə daxil olmuşdur. Bu isə o deməkdir ki, artıq yaxın gələcəkdə Azərbaycanda iqtisadi artımın təmin olunmasında karbohidrogen ehtiyatları ilə yanaşı, ÜDM-un artımında qeyri-neft sektoru sahələrinin payı artacaq, ölkəmizin dövlət büdcəsinin neft fondundan olan transferlərin xüsusi cəkisi tədricən aşagı düşəcək, qeyri-neft sektorunun ixrac imkanları artacaqdır. Bütün bunlar

Azərbaycanda iqtisadi artımın xarakterində. Hərəkətverici qüvvələrində, amillərində, şərtlərində yeni keyfiyyət dəyişiklikləri formalaşdırılacaqdır.

Dəyişən bu şəraiti nəzərə alaraq ölkə prezidentinin 16 mart və 6 dekabr sərəncamları ilə 11 sektor üzrə 12 strateji yol xəritəsi qəbul olundu. Bu strateji yol xəritələri əslinda yaxın gələcəkdə Azərbaycanda post-neft mərhələsində iqtisadi artımın amillərinin strukturunda baş verən dəyişiklikləri, amillər, şərtləri, başlıca məqsəd və hədəfləri, onlara catmagın yollarının reallaşma mexanizmini özündə əks etdirir. Bu baxımdan ölkəmizdə post-neft mərhələsində iqtisadi artım probleminin tədqiqi strateji yol xəritələrinin prinsipial müddəalarına və konsepsiyasına əsaslanmalıdır. Bu baxımdan magistr dissertasiya işi cox mühüm nəzəri-metodoloji və əməli bir problemə həsr edilmişdir.

Son illərdə Azərbaycanda sosial-iqtisadi inkişaf sahəsində əldə olunan ugurlar, yaradılmış elmi-texniki, maliyyə potensialı milli iqtisadiyyatın davamlı inkişaf konsepsiyasına kecidini əməli bir problem kimi qarşıya qoymaga imkan verdi. Bununla baglı ölkə prezidenti 16 mart 2016-cı il fərmanı ilə "Milli iqtisadiyyat və onun əsas sektorlarında strateji yol xəritəsinin əsas istiqamətləri"ni təsdiq etdi. Həmin konsepsiyada ölkəmizin iqtisadi inkişafının mövcud vəziyyəti sistemli təhlil olunur, dəyərləndirilir, mövcud elmi-texniki və maliyyə imkanları şəraitində hərəkətə gətirilə bilən potensial müəyyənləşdirilir.

Strateji yol xəritəsində mövcud vəziyyətin dəyərləndirilməsi dünya iqtisadi ədəbiyyatında və təcrübədə tətbiq olunan mütərəqqi metodlara, metodologiyalara əsaslanır. Iqtisadi inkişafın 360 dərəcəlik diaqnostikası əsasında onun zəif tərəfləri, güclü tərəfləri, imkanları və təhdidlər GZİT təhlil olunaraq nəticələr cıxarılır. Başqa sözlə yaxın gələcəkdə ölkəmizin iqtisadi artımın təmin edilməsinin yeni konsepsiyası müəyyənləşdirildi. Yol xəritəsində xüsusi vurgulanır ki, Azərbaycan 2015-ci ildən artıq post-neft mərhələsinə daxil olmuşdur. Dogrudur, hələ yaxın gələcəkdə azərbaycanda iqtisadi artımın təmin edilməsində karbohidrogen ehtiyatları, onların dünya bazarına cıxarılması iqtisadi və sosial inkişafın əsas mənbələrindən biri olaraq qalacaqdır. Bununla belə təhlil də göstərir ki, son illərdə ölkəmizdə iqtisadiyyatın diversifikasiyası nəticəsində qeyri-neft sektorunun

məhsullarının istehsalı və ixracı kəskin artır, onun ölkənin ÜDM-də payı yüksəli. Bununla baglı son vaxtlar ölkəmizdə strateji yol xəritəsinin konsepsiyasına uygun olaraq dəyişən şəraitə uygun olaraq fəal, cevik iqtisadi siyasət yeridilir.

Bu baxımdan magistr dissertasiya işinin "Azərbaycan Respublikasında iqtisadi artımın makroiqtisadi aspektləri" probleminin magistr dissertasiya işində araşdırılması mühüm əhəmiyyət kəsb edir.

**Dissertasiya işinin məqsədi.** Azərbaycan Respublikasında iqtisadi artımın makroiqtisadi aspektlərinin strateji yol xəritəsinin konsepsiyasına uygun olaraq post-neft dövründə Azərbaycanda iqtisadi artımın təmin edilməsinin makroiqtisadi aspektlərini tədqiq etməklə Azərbaycanda makro səviyyədə ölkəmizin iqtisadi inkişaf imkanlarından, potensialından səmərəli istifadə etməklə yüksək iqtisadi artıma nail olmagın, fiskal dayanıqlıgın təmin edilməsini və effektiv monetar siyasəti təmin etməklə yüksək iqtisadi artıma nail olmagın dövlət mexanizminin normativ-hüquqi bazasının dəyişən şərait və tələb nəzərə alınmaqla təkmilləşdirilməsini sistemli təhlil edib dəyərləndirmək əsasında ümumiləşdirmələr etmək, xüsusiyyətləri aşkara cıxarmaq və bütünlükdə Azərbaycanın 6 dekabr 2016-cı ildə prezident sərəncamı ilə təssdiqlənmiş Strateji yol xəritələrinin konsepsiyasının, başqa sözlə başlıca məqsədləri, hədəfləri, əməli cəhətdən səmərəli reallaşdırılması və perspektiv inkişafın prioritet istiqamətlərinin müəyyənləşdirilməsində, normativ-hüquqi və institusional bazasının təkmilləşdirilməsi ilə baglı təkliflər və tövsiyyələr irəli sürmək və bununla baglı inkişafın prioritet istiqamətlərini müəyyənləşdirməkdən ibarətdir.

Magistr dissertasiya işinin başlıca məqsədi post-neft mərhələsində ölkəmizdə iqtisadi artımın amillərində, şərtlərində, institusional bazasında dəyişikliklərin hərəkətverisi qüvvələrində baş verən keyfiyyət dəyişikliklərini nızırı alaraq iqtisadi artımın dinamikliyini və davamlılıgını təmin etmək ücün dövlətin makroiqtisadi siyasətinin effektivliyinin artırılması ilə baglı müvafiq təkliflər, tövsiyyələr vermək, ümumiləşdirmələr etmək və dəyərləndirməkdən ibarətdir. Magist dissertasiya işinin qarşıya qoyulan başlıca məqsədə uygun olaraq aşagıdakı tədqiqat istiqamətləri onun ana xəttini təşkil edəcəkdir: ölkəmizin mövcud sosial-

iqtisadi inkişaf səviyyəsini, yaradılmış elmi-texniki potensialı və yaxın gələcəkdə hərəkətəgətirilə bilən imkanları dəyərləndirmək; uzunmüddətli makroiqtisadi və maliyyə sabitliyi; ikinci nəsil struktur islahatının yollarını və vasitələrini müəyyənləşdirmək; əsas inkişaf qurumlarının modernləşdirilməsi; ölkənin sosial-mədəni kapitalını nəzərə alaraq, davamlı inkişaf yolunun əldə edilməsi üzrə milli konsensus sxeminin qurulmasına imkan verəcək yerli inkişaf modelini qurmaq.

Tədqiqatın məqsədi aşağıdakı əsas vəzifələrin işinə çatmaq üçün: XX əsrin ikinci yarısından başlayaraq dünya iqtisadi inkişafının tendensiyalarını təsvir edən nəzəri anlayışlar ümumiləşdirilir; qarışıq iqtisadiyyatın tipologiyasını və onun modellərinin müqayisəli təhlili barədə ümumi məlumat vermək; modernizasiya və modernizmin müxtəlif konsepsiyalarını nəzərə almaq; müstəqillik dövründən Azərbaycan nümunəsi ilə neft istehsal edən ölkənin keçid iqtisadiyyatının makroiqtisadi inkişafının ətraflı təhlili aparmaq; neft zənginliyinin Azərbaycanın gələcək inkişafının uğurlu olması, makroiqtisadi qurumların keyfiyyəti və resursların asılılığının qarşısının alınması baxımından optimal büdcə siyasətinin seçilməsi, digər tərəfdən də mövcud qlobal iqtisadi böhrana təsir məsələlərini nəzərdən keçirir; sosial və mədəni kapital potensialından istifadə edərək, sektorun (qeyri-neft) inkişafının, sosial modernləşmənin və əhalinin iqtisadi fəaliyyətinin artırılmasının ən perspektivli sahələrinin seçilməsi və seçilməsi məsələləri də daxil olmaqla, Azərbaycanda təkamülçü modernləşmə üçün resursları və məhdudiyyətlərini təhlil etmək.

**Magistr dissertasiya işinin obyekti və predmeti:** Tədqiqatın obyekti post-neft mərhələsində Azərbaycanın sosial-iqtisadi inkişafının mövcud vəziyyətinin təıhlil edilərək dəyərləndirilməsi əsasında iqtisadi artımın dinamikliyini və davamlılıgının təmin edilməsi ilə baglı ölkədə reallaşdırılan makroiqtisadi siyasıtin mahiyyəti, strukturu, prioritetləri və reallaşma mexanizmi ilə baglı dövlətin tənzimləmə mexanizmi təşkil edir.

Ölkəmizdə reallaşdırılan makroiqtisadi siyasətin mahiyyəti, strukturu institusional bazası və reallaşma mexanizmi post-neft mərhələsində iqtisadi artımın təmin edilməsinin xarakterində baş verən dəyişikliklər və onların dəyərləndirilməsi

təşkil edir. və digər neft istehsal edən ölkələrin institusional inkişaf strategiyası və makroiqtisadi siyasətidir.

**Dissertasiya işinin nəzəri-metodoloji əsası.** Dissertasiya işinin yerinə yetirilməsi zamanı iqtisadi artım probleminin nəzəri-metodoloji və əməli problemlərinin araşdırılması ilə baglı dünya təcrübəsi və Azərbaycanın müstəqillik illərindəki təcrübəsi, habelə iqtisadi artımla baglə ölkəmizda aparılan tədqiqatlar bu sahədə son illərdə ölkəmizdə qəbul olunmuş normativ hüquqi aktlar və sənədlər təşkil edir.

Tədqiqatın metodik əsasları beynəlxalq və institusional iqtisadiyyat sahəsində tanınmış müəlliflərin, eləcə də makroiqtisadi təhlilin işidir. Müəllif E. Avdokuşin, K. Ayres, M. Alber, D. Şimal, G. Myrdal, D. Rodrik, J. Stiglitz, D. Soskis, M. Todaro, P. kimi iqtisadçıların, habelə Azərbaycanın görkəmli alimlərindən akademik Z.S.Səmədzadənin, prof.Ə.C.Muradovun, prof. T.X.Hüseynovun, prof.M.A.Əhmədovun, prof.Q.N.Manafovun, prof. Ə.Ələkbərovun, prof. Ü.Q.Əliyevin əsərlərindən istifadə olunmuşdur.

Magistr işinin yazılışında GZİT təhlildən**,** sintez və analiz, induksiya-deduksiya, indeks və digər metodlardan, habelə müvafiq dövlət proqramlarının materiallarından istifadə olunmuşdur.

**Magistr dissertasiya işinin informasiya bazasını** Azərbaycan Dövlət Statistika Komitəsinin, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Sahibkarlığa Kömək Milli Fondunun, Mərkəzi Bankın statistik materialları və illik hesabatları, qanun və normativ-hüquqi aktlar, Nazirlər Kabinetinin qərarları, Prezidentin sərəncam və fərmanları, eləcə də ölkədə fəaliyyət göstərən müxtəlif iri şirkətlərin verdiyi informasiyalar və hesabatları, rəsmi dövlət strukturlarının və beynəlxalq təşkilatların proqram, proqnozlaşdırma, analitik və konseptual materialları, xüsusi sorğular, eləcə də müəllifin inkişafı və təhlili ilə aparılır Azərbaycan Respublikasında stabilləşdirilmə və struktur islahat proqramlarının həyata keçirilməsi ilə bağlı çoxillik işlərin nəticəsi olaraq hazırlanmışdır.

**Magistr dissertasiya işinin praktiki əhəmiyyəti**. Tədqiqatdan alınan nəticələr Azərbaycan Respublikasının orta və uzunmüddətli inkişaf strategiyasının konkret hədəflərinin, məqsədlərinin və reallaşma mexanizminin, habelə post-neft mərhələsində iqtisadi artımın təmin edilməsinin normativ-hüquqi və institusional bazasının təkmilləşdirilməsi ilə baglı təklif və tövsiyyələr verilir. Eyni zamanda tədqiqat işi gedişində əldə olunan nəticələr tədris prosesində istifadə oluna bilər.

**İşin strukturu**. Süleymanov Anar İsə oğlunun "Azərbaycan Respublikasında iqtisadi artımın makroiqtisadi aspektləri" mövzusunda magistr dissertasiya işi giriş, 3 fəsil, 9 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSIL POST-NEFT MƏRHƏLƏSINDƏ IQTISADI ARTIMIN TƏMIN EDILMƏSININ TƏDQIQININ NƏZƏRI-METODOLOJI ƏSASLARI

## 1.1 Müasir dövrdə ölkəmizin davamlı iqtisadi artım konsepsiyasına kecidinin təmin edilməsinin dövlət mexanizmi və konseptual əsasları

Azərbaycan müstəqil dövlətə cevrildikdən sonra özünün bütün yeraltı-yerüstü sərvətlərinin sahibinə cevrildi. Belə bir şəraitdə müstəqil təkrar istehsal prosesini həyata kecirən ölkəmizdə iqtisadi inkişafın təmin edilməsi və onun dinamik xarakter alması həlledici dərəcədə bu mərhələlərdə həyata kecirilən dövlətin iqtisadi siyasəti və tənzimləmə mexanizmi ilə müəyyən olunur. Cünki, kecidin ilkin illərində ölkəmiz inzibati amirlik sistemindən tədricən bazar sisteminə kecidi özəl sektor cox zəif idi. Belə bir şəraitdə ölkəmizdə iqtisadi artımı təmin etmək ücün ölkəmizin malik oldugu təbii, əmək, maddi resurslar balansı, onlardan istifadə dərəcəsi, habelə hər bir konkret dövrdə ölkəmizin malik oldugu resurslara uygun hərəkətə gətirilə bilən potensial nəzərə alınaraq iqtisadi artım müəyyənləşdirilmişdir.

Qeyd etmək istərdik ki, kecidin ilkin mərhələsində ölkəmizdə neft strategiyasının ugurla reallaşdırılması nəticəsində yaradılan elmi-texniki, maliyyə, istehsal potensialı, habelə infrastruktura ölkəmizə iqtisadi artımın dinamikliyini və kifayət qədər yüksək sürətini təmin etməklə davamlı inkişafa kecidi əməli bir problem kimi qarşıya qoymaga imkan verdi.

Qeyd olunanları nəzərə alaraq ölkə prezidenti 2009-cu ildə Bakı Dövlət Universitetinin yubileyində belə bir bəyanatla cıxış etdi ki, artıq ölkəmiz inzibati amirlik sistemindən bazar iqtisadiyyatına kecid dövrü başa catmışdır. Ona görə də biz bu illərdəki sosial-iqtisadi inkişafımızı, normativ-hüquqi qanunverici bazamızı təhlil etməli, dəyərləndirməli və gələcək inkişaf istiqamətlərimizi müəyyənləşdirmək ücün zəruri nəticələr cıxarmalıyıq. Dünya təcrübəsi göstərir ki, ölkələrin inkişafı kifayət qədər potensiala malik oldugu halda iqtisadi inkişafla sosial inkişaf arasında, sosial inkişafla ətraf mühit arasında, ölkənin hazırki inkişaf səviyyəsi ilə gələcəkdə inkişagf mümkünlüyü arasında əlaqələri, asılılıqları öyrənmədən davamlı iqtisadi artımı təmin etmək cətindir. Bu isə öz növbəsində

ölkənin milli iqtisadiyyatının mövcud vəziyyətini, iqtisadi artımı təmin edən amil və şərtləri, iqtisadi artımın təmin edilməsinin mövcud qanunvericilik bazası və normativ aktları, ölkədə mövcud olan investisiya, innovasiya, sahibkarlıq mühitini, hətta milli mentalitet məsələlərini öyrənmək və dəyərləndirmək lazımdır. Cünki, cox haqlı olaraq məşhur amerikan alimi Maykl Porter qeyd edir ki, inkişaf cox şaxəli, cox səviyyəli və külli miqdarda iqtisadi artımın obyektiv, subyektiv, daxili, xarici və siyasi amillərdən asılı olan bir prosesdir. Belə ki, inkişaf hər bir ölkənin malik oldugu mütləq üstünlüklərin reallaşma tarixi deyil. O qeyri münasib şəraitlə mübarizə tarixidir. Sanki, bu yanaşma tam Azərbaycan üçün deyilib. Cünki, Azərbaycan müstəqil dövlətə cevrildikdən sonra ənənəvi istehsal əlaqələri qırıldı, inzibati amirlik sistemindən imtina olunmagına baxmayaraq bazar münasibətləri bərqərar olmadı, istehsalın həcmi 3 dəfəyə yaxın aşagı düşdü, 1993-1994-cü illərdə illik inflyasiya 1300-1800 arasında tərəddüd etdi. Belə bir şəraitdə ulu öndər özünün fövqal təşkilatcılıgı və rəhbərliyi ilə ölkədə makroiqtisadi sabitləşmə təmin olundu, tədricən istehsal dircəldi və daha sonra gələcək inkişaf üçün kifayət qədər güclü, maddi, institusional baza yaradıldı ki, bu da sonradan davamlı inkişafı əməli bir problem kimi qarşıya qoymaga imkan verdi. Bütün bunlar isə öz növbəsində ümumiyyətlə iqtisadi artımın mahiyyətini, amilləri, şərtləri, mexanizmləri, elmi-metodoloji baxımdan dəyərləndirilməsini tələb edir.

Onu xüsusi vurgulamaq lazımdır ki, Azərbaycanda iqtisadi artımın xarakteri, mexanizmləri və bununla baglı reallaşdırılan makroiqtisadi siyasət 1995-ci il 12 noyabrda qəbul olunmuş, Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyənləşir. Azərbaycan Respublikasının Konstitusiyasının "İqtisadi inkişaf və dövlət" bölməsinin 15-ci maddəsində göstərilir: "Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlıga təminat verir, iqtisadi münasibətlərdə inhisarcılıga və haqsız rəqabətə yol vermir"

Qlobal iqtisadi inkişaf dövründə milli iqtisadiyyatımızın davamlı iqtisadi inkişafa keçidini təmin etmək üçün vacib ilkin şərtlərdən bəzilərini qeyd etmək istərdik. Belə ki: müasir qloballaşma prosesinin nəzəri-metodoloji anlamdan düzgün dərk edilməsi; bunların əməli nöqteyi-nəzərdən realizə olunmasının obyektiv qiymətləndirilməsi.

Bütün yuxarıda qeyd olunan şərtlər vacib əhəmiyyət kəsb edir. Cünki, milli iqtisadiyyatın müasir inkişafının xüsusiyyətlərinə qloballaşma prosesinin müsbət, həmcinin mənfi təsirini düzgün qiymətləndirmədən iqtisadi effektivliyi, rəqabət üstünlüyünü, onun təhlükəsizliyini strateji baxımdan dəyərləndirmək, davamlı iqtisadi inkişafa keçidinin əməli nöqteyi nəzərdən reallaşdırmaq çox cətindir. Eyni zamanda, bilirik ki, bu prosesin milli iqtisadiyyatımızın inkişaf xüsusiyyətlərinə təsiri cox müxtəlif yanaşmalardan qiymətləndirilir. Yəni, qloballaşma baxımından milli rəqabət üstünlükləri: siyasi – hüquqi; iqtisadi; sosial – mədəni; elmi – texniki; etno-demoqrafik; ekoloji nəzərdən araşdırıla bilər.

Onu da nəzərə almaq lazımdır ki, araşdırılan dövrdə sosial, iqtisadi proseslərin liberallaşdırılması zəminində vaxtı ilə dünya iqtisadiyyatlarının strukturlarında iqtisadi sferalarda hec vaxt müşahidə olunmayan gözəcarpan keyfiyyət üstünlükləri müşahidə olunur. Buna əyani misal olaraq, maliyyə qloballaşması, eyni zamanda qlobal-transmilli kompaniyaların təşəkkülü dövründə də kapital hökmranlığı istehsalın artımını, dünya ticarətində intensivləşmə ilə paralel olaraq regionlaşmanın, informasiya-məlumat axınının iqtisadi artıma nisbətən daha sürətlə artması, qlobal transmilli oliqopoliyaların iqtisadi inkişafa təsirinin artması, iqtisadi, siyasi faktorların da həmcinin dövlət hakimiyyətinə təsiri artacaqdır. Beləliklə, qloballaşma iqtisadiyyatın ümumi fəaliyyət mexanizminə, və onun əsasını təşkil edən rəqabət üstünlüklərinin də əsaslarına nəzərə carpacaq dərəcədə təsir edir. Araşdırmalardan görmək olar ki, bu proses əsasən aşağıda qeyd edilən istiqamətləri əhatə edir: Milli rəqabət üstünlükləri qloballaşmanın təsirindən güclü şəkildə beynəlxalq meyarların da təsirinə məruz olur; Həmcinin, himayədar siyasət, liberal prinsiplərin arasında da ziddiyyətli proseslər nəzərə carpır.

Görürük ki, əvvəla ölkəmizdə milli iqtisadi təhlükəsizliyin prinsiplərinin qorunması, başqa bir tərəfdən isə bununla baglı liberal prinsiplərə dayanaraq dünya iqtisadiyyatı inteqrasiyasına qovuşur. Bu nöqteyi-nəzərdən qarşıdakı perspektivdə milli iqtisadiyyatın yaranmasına effektiv təsir edən belə prinsiplərin optimal tətbiqinin gözlənilməsi mühüm əhəmiyyət kəsb edir. İnkişaf etməkdə olan ölkələrin tarixi təcrübəsi onu da qeyd etməyə əssas verir ki, qloballaşma milli iqtisadiyyatların rəqabətqabiliyyətliliyini, effektivliyini, iqtisadi təzlükəsizliyini və ən nəhayət onun effektiv qarşılıqlı asılılığını və əlaqənin təmin edilməsi sonda bu iqtisadiyyatın davamlı iqtisadi inkişafının təmin edilməsinin vacib və mühüm şərtlərindən biridir. Bütün bunlar özlüyündə mövcud reallıgın qiymətləndirilməsi ilə milli iqtisadi inkişafın optimal strategiyasının seçilməsini zəruri edir. Bu zaman yaradılan iqtisadi inkişafın strateji proqramlarının yerinə yetirilməsi imkanlarının müəyyən edilməsı, başlıcası isə bunlar çevik olmalı və davamlı iqtisadi inkişafın təmin edilməsi üçün tez-tez yenilənməli, o cümlədən korreksiya edilməlidir. Milli iqtisadiyyatın xarici, o cümlədən daxili hissələrinin optimal əlaqəsinin təmin edilməsi, eyni zamanda ayrı bir sözlə ifadə etsək, onların iqtisadi açıqlığının optimal həddi müəyyən edilməlidir.

Bunlar bizə belə bir qənaətə gəlməyə əsas verir ki, qeyd etdiyimiz vəzifələri uğurla yerinə yetirmək üçün:

1. Respublikamızda milli iqtisadi resurs potensialından indiki və gələcək nəsillərin maraq və mənafeləri nəzərə alınmaqla effektiv istifadə olunmalıdır;

2. Tədricən iqtisadiyyatın resurslara əsaslanan inkişaf modellərindən texnoloji inkişaf baxımdan rəqabət qabiliyyəti üstünlük təşil edən inkişafa, başqa sözlə innovasiyalı davamlı iqtisadi inkişaf modelinə keçidlə bağlı mühüm iqtisadi-təşkilatı, texniki - texnoloji potensialları hazırlamaq lazımdır.

3. Nəhayət, bu məsələlərin əməli cəhətdən daha effektiv realizə edilməsi üçün hər şeydən öncə davamlı milli iqtisadi inkişaf strategiyasının yaradılması zəruriyyətə çevrilir.

4. Yuxarıda qeyd olunanlar isə öz növbələrində "davamlı iqtisadi inkişaf" anlayışının mahiyyətini, eyni zamanda, bu inkişafa keçidin obyektiv bir zəruriyyətə

çevrilməsi faktorlarının, şərtlərinin milli maraq və reallıqlar baxımından, dünya təcrübəsi nöqteyi nəzərindən qiymətləndirilməsi, bu prosesin yaranmasının qanunauyğunluqları, xüsusiyyətləri nəzəri-əməli məsələlərin sistemli araşdırılmasını zəruri edir.

Bilirik ki, məcmu tələb və məcmu təklif, başqa sözlə desək iqtisadi artımın dinamikliyi, tarazlığı, dayanıqlığı və davamlılığının təmin edilməsi, istehsal və istehlak mütənasibliyin gözlənilməsindən birbaşa asılıdır. Bu bir həqiqətdir ki, bazar iqtisadi sistemində milli iqtisadiyyatın tarazlı və dinamik formada inkişafı iqtisadi konyukturadan asılı olaraq dəyişir. Belə ki, ayrı-ayrı dövrlərdə iqtisadiyyatdakı yüksəlişlər durğunluqlar, eyni zamanda böhran halları ilə də əvəz oluna bilirlər. Milli iqtisadiyyatın dinamikliyinin bir tsikl vəziyyəti bir iqtisadi tarazlıqdan digər bir iqtisadi tsikl halına tərəf hərəkət ilə dəyişə bilər.

O da məlum olur ki, əksər iqtisadi böhranların olması hər şeydən öncə məcmu tələb və məcmu təklifin proporsiyalarının pozulması, yanlış pul – kredit siyasəti aparılması, sosial və iqtisadi proseslərin idarə olunmasında, tənzimlənməsində dövlət və bazar mexanizmi hədləri, onların təsir vasitələrinin düzgün müəyyən olunmamasından yaranmışdır. Bütün bu qeyd etdiklərimizlə birgə, ayrı-ayrı iqtisadi cərəyan, məktəblər, qısa və orta müddətli iqtisadi tərəddüdlərin səbəblərinin ayrı-ayrılıqda fərqli şəkildə izahını vermişlər. Dünya təcrübəsi onu da deməyə əsas verir ki, bazar iqtisadiyyatındakı tsiklik inkişaf hər şeydən əvvəl onun özünə xas olan daxili faktorların hərəkəti ilə müəyyən edilir. Məlumdur ki, Adam Smitin qeyd etdiyi “görünməz əl” makroiqtisadi tarazlığı kortəbii tənzimləyir. Eyni zamanda həm də o da məlumdur ki, sahibkarların çox gəlir sahibi olmaq ardınca qaçması səbəbindən bazarın təklifi tələbi üstələyir. Elə bu səbəbdəndir ki, əksər iqtisadçılar belə qənaətə gəlirlər ki, istehsal artığının meydana cıxması fərqli şərtlərlə, faktorlarla müəyyən olunsa da, nəticədə təklif və tələb arasında olan tarazlığın pozulması nəticəsində meydana cıxır. “Qısa və  orta müddətli tsikllər-tərəddüdlər” nəzəriyyəsinin banisi Isveçrəli alim Cak Sismolli (1773-1832) belə deyirdi ki, iqtisadi böhranların meydana gəlməsinin ilkin şərti kimi, gəlirin daha çox hissəsinin yığılmasını göstərirdi ki, o cümlədən çox az hissəsi isə istehlak

məhsullarının əldə edilməsinə sərf olunur. Bütün bu qeyd edilənlərin nəticəsində də satışla istehsal arasındakı tarazlıq pozulur. Alınmış belə vəziyyətdən çıxış yolunu o, belə müəyyən edirdi: milli gəlirin yenidən yanaşı bölünməsi labüddür. Orta tsikl nəzəriyyəsinin inkişafında da müstəsna rol Karl Marksa məxsusdur. K.Marks belə müəyyən etmişdir ki, tsikli inkişafın olması hələ cox əvvəllər, sadə əmtəə istehsalı prosesində meydana gəlmişdir. Bu qeyd olunan imkan kapitalist əmtəə istehsalı prosesində tam reallığa çevrilir. Bunun kapitalist istehsalı prosesində obyektiv bir proses olduğunu, Marks istehsalın ictimai, mənimsəmənin isə xüsusi xüsusiyyətdə olması ilə izahını vermişdir. Bu qeyd olunanlarla yanaşı Marks belə müəyyən edirdi ki, belə tez-tez böhranın yaranmasının maddi əsası müəyyən bir dövrdən sonra əsas kapitalın aşınması, həmcinin sıradan çıxmasından asılıdır. «Böyük durğunluq» illərində, o cümlədən onun ərəfəsində böhranların səbəblərini tədqiq edən Keyns belə bir qənaətə gəlmişdir ki, iqtisadi böhranların yaranmasının əsas səbəbi faiz səviyyəsi və mənfəətin gözlənilən normasının təsiri nəticəsində investisiyanın qeyri – stabilliyidir. Bu qeyd olunan nəzəriyyəni müəyyən mənada daha da inkişaf etdirən Hansen (1887-1976) iqtisadi tənəzzül və yüksəlişlərin səbəbini əsaslı kapital qoyuluşunun xüsusiyyətində göstərirdi.

Rus iqtisadçı alimi Kondratyev «Böyük tsikllərin konyukturası» adlı nəzəriyyəsində belə yazır: ”......iqtisadi tarazlığın uzun müddətə pozulması o cümlədən bərpasının əsasında «Tsiklik inkişafa uyğun olaraq əsas kapitalın yığımı, onun yerləşdirilməsi, o cümlədən məhsuldar qüvvələrin yenidən bölgüsü durur». Təhlil həm də onu da göstərir ki, istənilən yüksələn dalğa əsasında texniki tərəqqidən irəli gələn əsaslı dəyişikliklər durur”.

Klassik nəzəriyyədə iqtisadi inkişafın sürətləndirilməsi əsas etibarı ilə hər şeydən əvvəl iqtisadi resurslarla müəyyən olunur. Bildiyimiz kimi, XX əsrdə sahibkarlıq innovasiyalı iqtisadi inkişafın əhəmiyyətli faktorlarından birinə çevrilmişdir. Belə ki, Elmi Texniki Tərəqqinin yeni-yeni nailiyyətlərinin istehsala tətbiq olunması əmək məhsuldarlığını, fondverimini artırmaqla yanaşı, material tutumunu aşağı salmaqla maddi resursların hər bir vahidindən daha da çox nəticə əldə etməyə imkan verirdi. Bütün bunlar İyirminci əsrin sonlarında qloballaşma

proseslərinin nəticəsində texniki-texnoloji nailiyyətlərin İEÖ-dən tədricən bu prosesə yenicə qovuşan İEOÖ keçməsi iqtisadi artımın dünya miqyasında sürətlənməsinə gətirib cıxardı. Dövlətimiz müstəqillik əldə etdikdən sonra dünyada baş verən qloballaşma proseslərinə fəal şəkildə inteqrasiyası iqtisadi inkişafın artım faktorlarına və onun səviyyəsinə daha güclü təsir göstərmişdir. Belə olan vəziyyətdə iqtisadi nəzəriyyədə yeni bir inkişafa çatma modeli meydana cıxır. Ölkəmizin sosial-iqtisadi inkişafının İEÖ-in səviyyəsindən xeyli geri qalmasını aradan qaldırmaq məqsədini qarşısına qoyan Iqtisadi Inkişaf Strategiyası iqtisadi əsərlərdə "Haqlayıcı iqtisadi inkişaf modeli" adlandırılır.

Tarixən Haqlayıcı Iqtisadi Inkişafın iki modeli məlumdur: Idxalı əvəzləyən; Ixraca yönəldilən inkişaf.

Təcrübə onu da qeyd etməyə əsas verir ki, qloballaşma dövründə idxala yönəldilən liberallaşma mümkün qədər daha effektiv tənzimləmə iqtisadi inkişaf modelinə keçidi daha da məqsədə müvafiq edir. Cünki, qloballaşma dövründə xarici-iqtisadi əlaqələrin, eyni zamanda resursların hərəkətlərinin liberallaşdırılması milli iqtisadiyyatın yüksək rəqabət qabiliyyətliliyinin təmin olunmasına uyğun sferalarda texniki tərəqqinin innovasiya əsasında tətbiq olunmasını, həmcinin iqtisadi mexanizmlərin bu qeyd olunan məqsədə yönəldilməsini zəruri edir. Son dövrlərin təcrübələri bunu bir daha göstərir ki, yeni yaradılan, o cümlədən haqlayıcı modelli bəzi ölkələr İEÖ-ə nisbətən bəzi müəyyən üstünlüklərə malik olurlar. Buna baris misal olaraq, ilkin mərhələdə Azərbaycanı göstərmək olar. Yeni sistemə keçid zamanı külli miqdarda təbii resursların olması, ucuz işçi qüvvəsi, iqtisadi münasibətlər sisteminin xüsusiyyəti əvvəlcədən daha yüksək innovasiya prinsipləri bazasında iqtisadiyyatı qurmağa imkan yaradır. O da məlumdur ki, sosial və  iqtisadi artımın hansı faktorlar əsasında əldə edilməsi ən vacib şərtlərdən biridir. Beləliklə, ekstensiv iqtisadi inkişaf cəmiyyətin uzun dövr ücün davamlı iqtisadi-inkişafını təmin edə bilmir. Buna görə də, müasir iqtisadi ədəbiyyatlarda elə iqtisadi artım daha effektiv hesab oluur ki, o, əsasən intensiv faktorların hesabına əldə olunmuş olsun. Başqa sözlə ifadə etsək, bu qeyd olunan iqtisadiyyatlarda əmək, kapital və maliyyə resurslarının hər vahidindən daha çox

son nəticə əldə olunur. Elə bu səbəbdəndir ki, milli iqtisadiyyat səviyyəsində qəbul olunan proqramlar və layihələr hazırlanarkən ölkədə istehsal faktorlarının balansının miqdarca müəyyən olunması, o cümlədən keyfiyyətcə dəyərləndirilməsi çox zəruri bir hal kimi qəbul olunmuşdur. Təcrübə onu da göstərir ki, hər hansı bir sferada istehsal faktorlarının tətbiqinin artması, onun digər sferalarda azalması ilə müşahidə olunur.

Bildiyiniz kimi, təkrar istehsalın ayrı-ayrı sferalarının arasında onun fazalarına uyğun gələn sıx əlaqələr yaradılır. Bu da bir həqiqət olaraq qalır ki, qloballaşma şəraitində respublikamızda bazar iqtisadiyyatına keçidlə bağlı onların arasındakı ənənəvi əlaqələr qırılmış və ya çox zəifləmişdir. Son illərdə Azərbaycanın milli iqtisadi inkişafının xüsusiyyətləri bəzi hallarda beynəlxalq təkrar istehsal prosesində meydana cıxan hallara uyğun gəlsə belə, ancaq o daha çox onun xüsusilə də mübadilə və ticarət sferasına olan müəyyən fazalarını özündə əks etdirir. Bütün bunlar dövlətimizdə real iqtisadi sektorun inkişafının əsasında davamlı, həmcinin effektiv təkrar istehsalın yaranmasına öz neqativ təsirini göstərir. Bu qeyd olunları nəzərə alaraq, Azərbaycan Respublikasında davamlı iqtisadi inkişafın təmin olunması əhəmiyyətli səviyyədə təkrar istehsal prosesinin bazar mexanizminin yaranması səviyyəsindən çox asılıdır. Bu prosesin özünün daxili hərəkətverici mexanizmini araşdırmadan, nəzərdən kecirmədən, qiymətləndirmədən, öyrənmədən, onun təmin olunmasının dövlət-bazar mexanizminin optimal hədlərini, kriteriyalarını, sərhədlərini müəyyən etmədən əməli əhəmiyyətli və gələcəyə yönəldilmiş qərar-tədbirlər sistemini icra etmək mümkün olmaz. Kecən dövr ərzində və xüsusilə də, sovet iqtisad elmində belə bir iqtisadi anlam var idi ki, istənilən halda iqtisadi artımın təmini sosial-iqtisadi proseslərin ən vacib hissəsidir. Bu da bir həqiqətdir ki, iqtisadiyyatın yaranmasının, həmcinin inkişafının cox mühüm, həmcinin ilk şərti stabil, dinamik iqtisadi artımın təmin olunması məsələsidir. Ancaq belə olduqda, «Ekonomiks» elminin bu önəmli aksioması nəzərdən qaçırılır ki, cəmiyyətdə «tələbatlar hüdudsuzdur, resurslar isə məhduddur».

Onu da nəzərinizə catdırmaq istərdik ki, klassik siyasi-iqtisad belə müəyyənləşdirirdi ki, bazar sistemi həm milli iqtisadi və həm də innovasiyalı ikişafı stimullaşdırmaq, artırmaq iqtidarındadır. Bütün bunlarla yanaşı, A.Smit, Rikardo, Maltus, və digər klassiklər belə qiymətləndirirlər ki, uzun bir müddət ərzində iqtisadi artımın və inkişafın təmin olunmasına qeyri-optimist yanaşırdılar. Bu yanaşmada onlar öz fikirlərini, iqtisadi müddəalarını keyfiyyətli əkin sahələrinin catışmamazlıgı və onunla da kənd təsərrüfatında gəlirliliyin azalması ilə əlaqələndirirdilər. Iqtisadi yanaşmanın klassiklərindən olan Maltusa əsasən yararlı torpaqdan əldə olunmuş faydalılıq, o anlama gəlir ki, əhali sayının artdığı, o cümlədən kənd təsərrüfatı məhsulunun gəlirliyinin azalması, bir qayda olaraq hər adambaşına düşən ərzaq məhsullarının istehlakının azalmasına gətirib cıxaracaqdır. Eyni zamanda, ərzağın qıtlığı əhali sayının azalmasına gətirə bilər. Lakin sonradan, o belə bir nəticəyə gəlir ki, dünyada ərzaq resursları ədədi, əhali isə həndəsi silsilə ilə coxalır. Bununla da o, gələcəkdə davamlı iqtisadi inkişafın məhdudlaşacağını işarə edirdi. Rikkardo isə Maltusdan cox fərqli bir şəkildə özünün yeni iqtisadi modelində kənd təsərrüfatı sahələrində gəlirin azalmasının səbəbini ancaq torpağın qıtlığı ilə deyil, əksinə olaraq daha çox get-gedə onun keyfiyyətinin pisləşməsi ilə acıqlayırdı. Onun fikrincə belə neqativ proseslərin qarşısını almaq üçün kənd təsərrüfatına Elmi Texniki Tərəqqinin nailiyyətlərinin tətbiq olunaraq torpaq sahələrinin hər vahidindən daha çox xeyir götürülə bilər ki, bu da nəticə etibarı ilə gəlirlərin azalmasına səbəb olar. Digər bir tərəfdən isə kənd təsərrüfatı sahəslərinə kapital qoyuluşunun artırılması bu sahədə çalışanların əmək haqlarını artırmaqla yanaşı, sonradan gəlirləri azaldan faktorlar da fəaliyyət göstərir. Onlardan fərqli olaraq Mill belə iddia edirdi ki, texniki inkişaf, təkcə insanların maddi deyil, həmcinin də, etik, estetik və təhsil tələbatlarının ödənilməsi ücün şərait yaranardı. Marks isə belə qənaətə gəlmişdi ki, təbii resursların normadan cox istismarı kapitalizmin qeyri-stabilliyini şərtləndirən faktor olmaqla yanaşı, o, izafi dəyərin qanununun sahəsində də daha da coxalır. Məşhur iqtisadçı alim Piqu belə qeyd edirdi: ”İqtisadi inkişafın təbiətlə təmin olunmasında dövlətin cox mühüm müstəsna rolu olmalıdır”. Yuxarıda qeyd olunanlarla birgə, təbiətin cəmiyyətlə

inkişafının qarşılıqlı əlaqəsinə dair Robert Kousun yanaşması diqqəti daha da çox özünə cəkir. Belə ki, onun fikrinə əsasən təbii resurlardan istifadə sahəsində mövcud olan məsələlərin əsasında cəmiyyətdə təbii resurslara, həmcinin ekoloji tarazlığın təmin olunmasına və bununla bağlı dəqiq müəyyən olunmuş mülkiyyət hüququnun olmamasıdır. Bu səbəbdən o, belə müəyyənləşdirdi ki, optimal ətraf mühit bazar münasibətlərinin əsasına görə yerinə yetirilməli, dövlət isə bu prosesin realizə olunmasına nəzarətci olmalıdır. Cox uzun illərin təcrübəsi onu da göstərdi ki, hətta İEÖ-də də belə bu qeyd olunan müddəaları əməli baxımdan icra etmək həqiqətdə qeyri-mümkündür.

XX əsrin sonlarına dogru İEÖ-də tez-tez meydana cıxan iqtisadi böhranlar iqtisadçıların, həmcının də siyasətçilərin mövcud olan iqtisadi sistemlərin əsası olan prioritetlərinə və eyni zamanda onların istiqamətlərinə yenidən nəzər yetirmələrini obyektiv zərurətə çevirirdi.

Artıq 1980-ci illərdə iqtisadi artıma aid olan iqtisadi təlimin neoklassik nəzəriyyəsi vüsət almaga başladı. İqtisadi açıqlığa, azad bazar inkişafına, dövlətsizləşməyə və özəlləşməyə əsaslanan bu qeyd olunan modeldə iqtisadiyyatda baş verən bütün uğursuzluqları iqtisadiyyata dövlətin fəal müdaxiləsi ilə izah etməyə çalışırdılar. 1990-cı illərdə əksər institusional, həmcinin eyni zamanda neoklassik iqtisadçılar daha bir yeni "iqtisadi artım" nəzəriyyəsinin özülünü qoymaga başladılar. Onlar belə əsaslandırmaga çalışırdılar ki, bir sıra ölkələr uğurla inkişaf edirsə, bəs nəyə görə bəziləri staqnasiya vəziyyətində qalır? Və belə oldugu halda onlar müəyyən edirlər ki, azad bazarın inkişaf prosesində dövlət çox mühüm rol oynamalıdır. Iqtisadi artıma bu cür yanaşma həqiqətən də iqtisadiyyatın davamlı iqtisadi inkişafının prinsiplərinə tam uyğun idi.

Sosial-iqtisadi inkişafın prinsipcə yeni modelində də həqiqətəndə iqtisadi artımın sənaye tipinin əvəz olunması iqtisadi artıma sərt olaraq təbii resurs və həmcinin ekoloji məhdudiyyətin qoyulmasının vacibliyini irəli sürürdü. Bütün bu qeyd olunanlarla birgə, bu model bilavasitə sosial ədalət, davamlı insan inkişafı və eyni zamanda gələcək nəsillərin qarşılıqlı əlaqəsinin tam təmin olunmasını əsas götürürdü. Başqa bir sözlə desək, davamlı iqtisadi inkişaf elə bir inkişafı nəzərdə

tutur ki, bu günki insanların həyat səviyyəsini artırarkən gələcək nəsillərin maraqları, o cümlədən mənafelərinin daha da yaxşı realizə edilməsinə zərər gətirilməsin. Davamlı iqtisadi inkişaf konsepsiyasının əsasını belə bir sivil yanaşma təşkil edir: sosial–iqtisadi sistemlərin, o cümlədən inkişaf modellərinin xüsusiyyətlərindən asılı olmayaraq iqtisadi inkişafın elə bir səviyyəsini təmin etmək vacıbdır ki, Elmı Texniki Tərəqqinin tətbiq olunması eyni zamanda, inkişafı artdıqca insanların davamlı yaşayış prinsipləri bütün səviyyələrdə gözlənilsin və həmcinin də ətraf mühitin tarazlığına ziyan gətirməsin.

Təhlil zamanı onu da görürük ki, təcrübədə inkişaf konsepsiyasının təkamülü prosesi 2 yanaşma ilə xüsusilə seçilir: 1. I yanaşma zamanı davamlı iqtisadi inkişafın mahiyyətinin, dinamikasının, müəyyən olunması meyarlarının, həmcinin onun səviyyəsi xüsusiyyətlərinin verilməsi üçün istifadə olunan indikatorların təkmilləşdirilməsini özündə əks etdirir; 2. II iqtisadiyyatın davamlı iqtisadi inkişaf konsepsiyasının təkamülü özünə daha çox bu inkişafın idarə edilməsinin forma və metodlarının təkmilləşdirilməsi məsələlərini daxil edir. Qloballaşma şəraitində bir sıra dövlətlərdə davamlı iqtisadi inkişaf tipinə keçidin mühümlülüyü, əhəmiyyətliliyi əhali artıqlığı, eyni zamanda təbii resursların qıtlığı ilə şərtlənmişdir. Bu qeyd olunanlarla belə, əksər ölkələrdə davamlı iqtisadi inkişaf tipinə kecidin zərurililiyi isə daha çox ətraf mühitin kəskin şəkildə pisləşməsindən yaranmışdır.

Davamlı iqtisadi inkişafa keçidin zəruriliyi 1972 – ci ildə ilk dəfə beynəlxalq səviyyədə Stokholm Sammitində müzakirəyə cıxarıldı ki, burada da tsikl dalğası ilə yanaşı onun daha da yeni bir qolu müəyyənləşdirildi. Bütün bu göstərilən neqativ proseslərin dəyərləndirilməsi ilə, Roma klubunun üzvi olan iqtisadçı alimlər bərpa olunmayan mineral və yanacaq ehtiyatlarının qıtlığını, eyni zamanda bunların ətraf təbii mühitə cox neqativ təsirini azaltmaq məqsədi ilə istehsala yeni texnika və həmcinin texnologiyaların geniş tətbiq olunmasını, bu problemlərin aradan qaldırılmasını və ya aşağı salınmasını irəli sürürdü. Elə həmin ildə «Roma klubunda» iqtisadcı alim Medoyz «artımın hədləri» adlanan iqtisadi konsepsiyasını hazırlamış oldu. 1974-cü ildən başlayaraq dünyada artımın dinamikasının

modelləşməsi nəticəsində belə fikrə gəlmək olar ki, müasir siyasi–sənaye, iqtisadi üsullar və eyni zamanda da resursların istehlakı siyasəti artıma hər hansı bir hədd qoyulmayana qədər qeyri-müəyyən olaraq qalacaqdır. Əks halda isə, sonralar dünyada bu proseslərdən irəli gələn nəticələrinin proqnozlaşdırılması mürəkkəb olan bir fəlakətə apara bilər. Roma klubunda kecirilən nöbbəti ikinci məruzə «Insanlıq yol ayrıcında» adlanırdı. Həmin məruzədə bu qənaətə gəlinirdi ki, ETT-nin imkanları cərcivəsində dünyanın kortəbii inkişafı əlbəttə ki, onun məhvinə, sonuna gətirə bilər.

Ücüncüsü, «Beynəlxalq qaydaların yenidən qurulması» adlanan məruzəsində dövlətin iqtisadiyyata müdaxiləsinin nümayəndələrindən biri Yan Tinberqen olmuşdur ki, o da əsas nəzərini qlobal, eyni zamanda lokal məqsədlərin üzərində qurmuşdur.

Dördüncü məruzə «Qlobal cəmiyyətlər üçün məqsədlər» adlandırılmışdır. Bu cıxışda maddi və eyni zamanda mənəvi dəyərlərin ödənilməsinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə böyük önəm verilir.

Ümumən, bu göstərilən cıxışlar dövlətin iqtisadiyyata müdaxiləsinin effektivliyinin artırılmasına və ənənəvi funksiyalarının aşağı salınmasına yönəldilmişdir. Bu baxımdan Roma klubundakı tədqiqatçıların məruzələri "davamlı iqtisadi inkişaf anlayış"ının aydınlaşdırılmasında, o cümlədən onun təmin olunmasında Milli konsepsiyalardan yaranmanın da müstəsna rolunu oynamışdır. Yuxarıda qeyd olunan məruzələrdən belə bir nəticə çıxarmışlar ki, iqtisadi staqnasiya təbii fəlakətlə müqayisədə daha yaxşıdır. Lakin, bu məruzələrin əsas qüsuru ondan ibarətdir ki, bunlar iqtisadi inkişafı təmin edən faktorları müəyyənləşdirərkən ETT-nin inkişafını, yeni enerji növlərinin, biotexnologiyanın və s., dövlət tənzimlənməsinin rolunu nəzərə almamışdılar. Lakin, onlardan fərqli olaraq Mesaroviç və o cümlədən Pestelya bu məruzələrdə fərqli şəkildə ayrı-ayrı regionlardan resurslar, həmcinin iqtisadi artımda mövcud vəziyyətin fərqli şəkildə olmasını əlaqələndirməyə çalışırdılar. Onlar iqtisadi artımın məcburi məhdudlaşdırılmasının və o cümlədən inkişaf etmiş regionlarda ETT-nin

sürətləndirilməsinin dünya iqtisadiyyatının dinamik inkişafının tarazlığının təmin edilməsi nə qədər vacib oldugunu müəyyən etdilər.

Bütün bunların dəyərləndirilməsi dövlətimizin malık olduğu təbii resurslarının, intellektual potensialının, qloballaşmada Respublikamızın fəal iştirakı bu dövr ərzində bütün istiqamətlər üzrə yaranmış potensial dayanıqlıgı və davamlı insan inkişafı konsepsiyasının hazırlanmasına, o cümlədən reallaşdırılmasına imkan verir. UNEC-in aparıcı iqtisadcı alimi Q.Manafov bu qeyd olunan prosesləri düzgün dəyərləndirərək yazır: «Azərbaycanın Milli iqtisadi inkişaf modeli təkcə bu gün deyil, əksinə gələcək dövrlərdə də ölkə qarşısında dayanan sosial və iqtisadi vəzifələrin yerinə yetirilməsi – iqtisadiyyatın dayanıqlı inkişafının, o cümlədən sənayenin strukturunun təkmilləşdirilməsi eyni zamanda effektivliyinin artırılması, yüksək artım templərinin saxlanması, qeyri-neft sahəsinin inkişafının sürətləndirilməsi, regionların kompleks, yüksək inkişaf səviyyəsinin təmin olunması, iqtisadi inkişafın innovasiya xüsusiyyətinin gücləndirilməsi, yoxsulluğun aşağı salınması, əhalinin maddi rifahının artırılması kursunun davam etdirilməsi və s. üçün möhkəm təməl yaradır». (Q.Manafov, Bakı 2017, səh.6)

Təcrübələr onu da göstərdi ki, davamlı iqtisadi inkişafın tədqiqində ənənəvi – metodoloji yanaşmalar bir cox vəziyyətlərdə istənilən səmərəni göstərmir. Digər bir baxımdan isə təcrübə onu da göstərir ki, bir cox hallarda ekoloji problemlərin meydana cıxması bazarın təkmilləşməməsi, o cümlədən əraf mühitlə bağlı olan mülkiyyət hüququnun tənzimlənməməsindən doğmuşdur. Belə ki, bütün bu problemlərlə bağlı effektiv institusional baza yaratmadıqda ondan effektiv istifadəni təmin etmək cox mürəkkəb bir iş olur. Cünki, bu gün davamlı iqtisadi inkişaf anlayışı dövlət, qeyri-hökumət təşkilatları, firmalar, birliklər, və s. ayrı-ayrı iqtisadçılar tərəfindən tam fərqli bir şəkildə başa düşülür ki, bu da öz növbəsində bu haqda çoxlu miqdarda müxtəlif yanaşmaların mövcudluguna gətirib cıxarır. Kecən iyirminci əsrin 90 – cı illərindən başlayaraq bir cox ölkələrdə davamlı iqtisadi inkişaf konsepsiyası qəbul olunmaga başlamışdır. Onların qiymətləndirilməsi Azərbaycanda davamlı iqtisadi inkişaf konsepsiyasının

yaradılması və o cümlədən də realizə edilməsində müstəsna əhəmiyyət kəsb etmiş olar. Hal-hazırda dünyanın bir cox ölkələrində davamlı iqtisadi inkişafa aid dövlət səviyyəsində komissiyalar yaradılır ki, bunlardan biri kimi ABŞ-da prezident yanında yaradılan komissiyanı misal göstərmək olar. O cümlədən, davamlı iqtisadi inkişafa keçidlə bağlı milli proqramları hazırlamışdırlar.

1996-cı ildə Rusiyada qəbul edilmiş davamlı iqtisadi inkişaf konsepsiyasında qeyd olundugu kimi: "davamlı iqtisadi inkişaf «stabil sosial-iqtisadi inkişaf» olmaqla bahəm onun təbii əsasını dağıtmır". Əhalinin yaşam keyfiyyətinin qaldırılması, biosferanın təsərrüfat tutumu həddində təmin olunmalı və həmin həddin kecilməsi təbii ətraf mühitin tənzimlənmə mexanizminin bioloji mexanizminə pis təsir edir ki, bu da sonda qlobal dəyişikliklərə gətirib cıxarır. Rusiyadakı davamlı iqtisadi inkişaf strategiyasının əsas xüsusiyyəti odur ki, burada davamlı iqtisadi inkişafa tarazlı keçid prioritet bir vəzifə olaraq irəli çəkilir və qeyd olunan məqsədlərə yetmək üçün öncəliklə ekoloji vəziyyətin stabilləşməsi, iqtisadi idarəetmə metodlarında ekoloji mühitin də əsas bir göstərici kimi dəyərləndirilməsi, iqtisadi fəaliyyəti reallaşdırarkən ekoloji sistemin də imkanlarının nəzərdən kecirilməsi, enerji resurslarına qənaətin texnologiyasının tətbiq olunması, həm də iqtisadiyyatın strukturunun dəyişən vəziyyətə və tələbə müvafiq olaraq təkmilləşdirilməsi önə cıxarılır. Bunları həyata kecirmək ücün hər şeydən əvvəl onun təmin edilməsinin hüquqi və təşkilatı əsaslarının yaradılmasını, eyni zamanda iqtisadi mexanizmlərin təkmilləşməsi fikri irəli sürülür.

Bütün bunlar isə öz növbəsində milli iqtisadiyyatda, həm də onun regionlarında uyğun proqramların qəbul edilməsini ön cərgələrdən birinə çəkir. Bəzi ölkələrdə qəbul edilmiş bu yeni konsepsiyanın təhlili onu deməyə lüzum yaradır ki, bunun hazırlanmasında davamlı iqtisadi inkişafın meyarlarının, o cümlədən prioritetlərinin müəyyən olunması müstəsna əhəmiyyətə malikdir. Hamiya məlum oldugu kimi, hər bir istənilən inkişaf konsepsiyasının realizasiyası xərclərin, o cümlədən onun ətraf mühitə və eyni zamanda gələcək nəsillərin inkişafının mənafe və maraqlarına təsirinin dəyərləndirilməsi zəruri bir hal olaraq ön planda göstərilir.

Dünya təcrübəsi onu da qeyd etməyə əsas verir ki, bazarın öz mexanizmi nə qədər təkmil olursa-olsun o, uzun müddətli davamlı iqtisadi inkişafı təmin edə bilmir və bu səbəbdəndir ki, günümüzdə makroiqtisadi səviyyədə tənzimlənmənin ən üstün istiqaməti onun davamlı iqtisadi inkişafın təmin olunmasına yönəldirilməsidir. Bütün yuxarıda qeyd edilənləri qiymətləndirmək istəsək, onu deyə bilərik ki, Respublikamızın malık olduğu intellektual potensial, təbii resurslar, Azərbaycanın qloballaşmada cox fəal iştirak etməsi, eyni zamanda son onillikdə bir cox istiqamətlərdə yaranmış potensial davamlı iqtisadi inkişaf konsepsiyasını hazırlamağa və həmcinin onu reallaşdırmağa imkan yaradır.

Bütün dünyada yaranan belə proseslərlə bağlı AR Prezidentinin təşəbbüsü ilə 2001-ci il 30 oktyabrda hökumət Azərbaycanda davamlı iqtisadi inkişafın strategiyasının işlənib hazırlanması haqqında sərəncam imzalamış, 2000-ci il 31 may - 4 iyunda Bakı şəhərində «Xəzəryanı ölkələrin davamlı iqtisadi inkişafı» mövzusunda beynəlxalq konfrans keçirilmiş, daha sonra isə 2001-ci ildə "Yoxsulluğun aşağı salınması, o cümlədən iqtisadi inkişaf proqrammı" qəbul edilmişdir. Və nəhayət, 2005-ci ilin avqust ayında Heydər Əliyev fondu Yuneskonun təşəbbüsü ilə Bakıda «Azərbaycan gələcəyə körpü» adlı beynəlxalq konfransı keçirilmişdir.

Beləliklə də, davamlı iqtisadi inkişaf konsepsiyasının mahiyyəti - planetin ehtiyatlarından effektiv, səmərəli və o cümlədən qənaətlə istifadə edilməsi, təbii ətraf mühitin qorunması və saxlanılması, indiki, eyni zamanda gələcək nəsillərin həyatının, yaşamının keyfiyyətcə yaxşılaşdırılması şərti ilə tələbatlarının optimal şəkildə ödənilməsi, bütün dünyada sülhün bərqərar olmasına yönəldilmiş sosial-iqtisadi-ekoloji inkişafı nəzərə alır. Ümumilikdə götürdükdə isə, sosial -iqtisadi inkişaf problemləri ətraf ekosistemin təbii imkanları ilə ahəngdar bir şəkildə və formada uzlaşdırılaraq həll olunması prosesini zəruri bir hala çevirir. Başqa sözlə ifadə etsək, Respublikamızda milli iqtisadi inkişaf modeli formalaşdırılmalıdır. Bu qeyd olunan problemin əhəmiyyətiliyini və həlli yollarını xüsusi vurğulayaraq professor Ə.Muradov haqlı olaraq qeyd edir: "Azərbaycan iqtisadiyyatının təklif baxımından təhlili də ugurlu strategiyanın müsbət nəticələrini göstərir. Son 10 il

ərzində Azərbaycan iqtisadiyyatında makroiqtisadi sabitlik qorunmuş, iqtisadiyyatın diversifikasiyası və sahibkarlığın inkişafı istiqamətində mühüm islahatlar aparılmış və zəruri tədbirlər görülmüşdür. Eyni zamanda bu dövr ərzində regionların tarazlı inkişafı təmin edilmiş, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi yüksəlmiş və ölkənin dünya iqtisadiyyatına sürətli inteqrasiyası davam etmişdir" (Ə.C.Muradov, Bakı 2017, səh.5)

### 1.2 Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarının perspektivi üzrə strateji yol xəritəsinin başlıca hədəf və məqsədlərinə uygun olaraq davamlı inkişafın təmin edilməsinin makroiqtisadi əsasları

Dövlətimiz öz müstəqilliyinə qovuşduqdan sonra özünün tamamilə bütün yerüstü, yeraltı, o cümlədən təbii sərvətlərinin, həmcinin insan potensialının şəriksiz bir sahibinə çevrilmişdir. Azərbaycanda yaxın gələcəkdə müəyyən edilən iqtisadi strategiyanın ana xəttini elə bir hal təşkil edir ki, o indiki və o cümlədən gələcək nəsillərin maraq-mənafeləri naminə ölkəmizin sahib olduğu bütün resurslardan effektiv şəkildə istifadə etməklə yanaşı, onların hər birinin vahidi hesabına maksimum son nəticə əldə etməklə davamlı iqtisadi inkişafa nail olunması əldə edilməlidir. Son strateji məqsəd kimi Davamlı Iqtisadi Inkişaf konsepsiyası elmi texniki tərəqqinin geniş tətbiq edilməsi əsasında gələcək nəsillərin tərəqqisi üçün tələb olunan potensial resurslarının effektivliyini, həm də optimal nisbətdə hərəkət etdirilməsini nəzərdən qacırılmamalıdır.

Qeyd etdiyimiz kimi son on beş il ərzində ölkəmizdə sosial-iqtisadi inkişafın bütün sahə və istiqamətləri üzrə əldə olunan nəticələr, yaradılmış potensial ölkəmizin keyfiyyətcə iqtisadi artımın yeni mərhələsinə daxil olmaga imkan verdi. Bütün bunlar öz əksini ölkə prezidentinin 16 mart 2016-cı il tarixli sərəncamı ilə təsdiqlənmiş Milli iqtisadiyyatın perspektiv inkişafı üzrə Strateji Yol Xəritəsinin məqsəd və hədəflərində öz əksini tapmışdır. Həmin sənədə uygun olaraq Azərbaycanda yeni dəyişən iqtisadi artım şəraitinə uygun olaraq IV başlıca stratreji

məqsəd həyata keciriləcəkdir. Əgər onları ümumi halda xarakterizə etməyə cəhd etsək aşagıdakıları qeyd etməliyik:

Post-neft mərhələsində neft qiymətlərinin aşagı düşməsi ölkəmizdə iqtisadi inkişafın dinamikliyini və davamlılıgını təmin etmək ücün ölkəmizdə dayanıqlı fiskal və effektiv monetar siyasətin həyata kecirilməsi hesab edilməlidir. Həm də bu birinci strateji məqsədə uygun olaraq fiskal və monetar siyasətin hər birinin özlərinin reallaşma mexanizmi də təkmilləşməlidir. Cünki, fiskal və monetar mexanizmi bu formada tətbiqi iqtisadi artımı təmin etmək ücün həm gəlirlərin formalaşmasını və xərclərin optimal nisbətdə tətbiqini nəzərdə tutur.

Aydındır ki, ölkədə zəruri inmvestisiya-innovasiya, sahibkarlıq mühiti yaratmadan uzunmüddətli davamlı iqtisadi artıma nail olmaq mümkün deyildir. Məhz qeyd olunan strateji yol xəritəsində bu ikinci hədəf kimi qeyd olunur.

Dünya təcrübəsindən məlumdur ki, cəmiyyətdə bütün resurslar məhduddur. Ancaq insan kapitalı tükənməz sərvətdir. Bu ücüncü strateji hədəfə uygun olaraq iqtisadi artımda insan kapitalını, əmək məhsuldarlıgının yüksəldilməsi əsas amil kimi qeyd olunur.

Dördüncü strateji məqsədə uygun olaraq biznes mühitinin yaxşılaşdırılması mühüm bir vəzifə kimi yaxın gələcəkdə inkişafına əsas götürülür. Xüsusi qeyd etmək lazımdır ki, bu strateji məqsədlərə uygun olaraq yaxın 20-30 il ücün ölkəmizdə davamlı iqtisadi artımı təmin etmək ücün başlıca hədəflər müəyyənləşdirilmişdir. Onlardan ölkəmizdə reallaşdırılan fiskal siyasətin dayanıqlıgını təmin etmək ücün xüsusən, neft qiymətlərinin aşagı düşdüyü şəraitdə büdcənin tarazlıgının qorunması ücün “Qızıl qayda” əsasında neft fondundan büdcəyə transferlərin köcürülməsi böyük əhəmiyyət kəsb edir.

Strateji yol xəritəsinin əsas hədəflərinə uygun olaraq qısa və uzun müddətli xərclər hüdudlarından büdcəyə yönəldilən xərclərlə investisiya arasında optimallıgın gözlənilməsi mühüm əhəmiyyətə malikdir. Bu strateji məqsəd və hədəflər gözlənilməklə onu da qeyd etmək lazımdır ki, hər bir ölkə obyektiv və eyni zamanda subyektiv faktorlarıyla şərtlənən iqtisadi dayanıqlığını, davamlılığının potensialına malikdir. Qeyd etmək lazımdır ki, qloballaşma

şəraitində bu proseslərin iqtisadi, texnoloji, siyasi, informasiya və s. vasitələr ilə inkişaf etməkdə olan milli iqtisadiyyatların yaranması və inkişafı xüsusiyyətinə müəyyən təhlükələr yarana bilər. Kecmiş postsovet məkanında müstəqil dövlətlərlə iqtisadi sistemin tarnsformasiyası təcrübəsi onu göstərir ki, bu ölkələrə BVF, o cümlədən DB göstərdikləri maliyyə-kredit dəstəkləri bir qayda olaraq qeyd edilən bu dövlətlərdə onların irəli çəkdikləri islahatların modellərinə müvafiq keçirildiyini bir şərt kimi göstərirlər ki, bu da onların bir cox hallarda beynəlxalq səviyyələrdə milli mənafe və maraqların strateji nöqteyi-nəzərdən realizə olunması prinsiplərinə cavab vermir.

Araşdırmalar göstərir ki, qloballaşma zamanında ölkəyə cəlb edilən xarici investisiyaların kəskin surətdə artırılması heç də bütün hallarda ölkəyə innovasiyaya əsaslanmış texnikanın, o cümlədən texnologiyanın gətirilməsinə səbəb olur. Yeni texnika-texnologiya ölkəyə yönəldilmiş olarsa, onlar hasiledici sənaye və infrastruktur sahələrinə yönəldilmiş olurlar. Bunu nəzərə alaraq qlobalaşma prosesinin nəticəsindən effektiv bəhrələr əldə etmək üçün onun milli iqtisadiyyatın yaranması, davamlı iqtisadi inkişafın xüsusiyyətlərinə təsiri təhlil olunmalı, perspektiv meyllər nəzərə alınaraq, qiymətləndirilərək əməli nəticələr çıxarılır. O da məlumdur ki, hər hansı bir dövrdə iqtisadi inkişafın xüsusiyyətləri, o cümlədən cəmiyyətdəki tələblər dəyişildiyinə görə bu resurslara olan tələbatlar dəyişirlər ki, bu hallarda da uyğun olaraq iqtisadiyyatda yeni-yeni nisbətlər formalaşdırılmalıdır. Cəmiyyətimizdə əsaslı islahatların aparılması, siyasi stabilliyin pozulması, hərbi və digər kataklizmaların baş verdiyi keçid dövründə, adəti üzrə, ümumi müvazinət daha sürətlə dəyişirdi. Bunlarla yanaşı, iqtisadiyyatdakı müvazinətin təmini, ölkənin malik olduğu resurslarından mümkün qədər effektiv istifadə edilməsi, gələcək inkişaf üçün uyğun ehtiyatların saxlanılmasını da nəzərdə tutur. Davamlı iqtisadi inkişafın təmin olunmasının nəzəri-əməli problemlərinin təhlili onu da söyləməyə əsas ki, müasir qloballaşan dünyada istənilən ölkə bu qeyd olunan məqsədə nail olmaq üçün hər şeydən əvvəl bu 4 problemi həll edərək yoluna qoymalıdır:

1. Son onilliklərdə dünyada iqtisadi inkişaf nəticəsində ekoloji böhran, yəni, cəmiyyətlə təbiətin qarşıdurması elə bir həddə gəlib cıxmışdır ki, bu problemlərə laqeydlik bəşəriyyətin mövcudluğunu şübhə altına almış olar.

2. Beynəlxalq səviyyədə davamlı iqtisadi inkişafın təmin edilməsinin vacib istiqaməti davamlı və dayanıqlı insan inkişafının təmin olunması ilə sıx bağlıdır ki, bu da özünə hər şeydən qabaq təhsil, səhiyyə, bütünlükdə insan inkişafının xüsusiyyətinə aid edilən məsələlərin həllini daxil etmişdir.

3. Dünyada davamlı iqtisadi inkişafın təmin olunması digər istiqaməti bir sıra ölkələrdə yaranmış gərgin demoqrafik proseslərlə baglıdır.

4. Dördüncüsü olunan qeyd olunanlarla birgə ayrı-ayrı ölkələr ücün davamlı iqtisadi inkişafı təmin edən faktorlar, həmcinin şərtlərin sistemli təhlili bunu da söyləməyə əsas verir ki, onun vacib hissəsi iqtisadi problemlə əlaqədardır. Belə ki, sonda ekoloji, sosial və demoqrafik məsələlərin həlli əhəmiyyətli dərəcədə iqtisadi inkişafın səviyyəsindən, xüsusiyyətindən cox asılı olur.

Son zamanlarda iqtisadi əsərlərdə "davamlı iqtisadi inkişaf" anlayışından istifadə olunsa da onun mahiyyəti ona yaxın olan ifadələrlə qarışdırılır. Məsələn, bəzən «dayanıqlı», «təminatlı», «keyfiyyətli» «tarazlı», «stabil», inkişaf anlayışları adekvat ifadələr kimi istifadə edilir. Davamlı iqtisadi inkişaf-belə yanaşmanın yeni sistemli təhlili onu deməyə əsas verir ki, belə fəaliyyət etibarlı, mütəşəkkil, dinamik və tarazlı, həmcinin siyasi-iqtisadi mühitlər arasında yarana bilən ziddiyyətlərin tənzimlənməsini də nəzərə alır. İnkişaf etmiş ölkələrin modellərinin faktorlarına görə öyrənilməsi onu söyləməyə əsas verir ki, bu inkişafın yüksək formasına iqtisadiyyatın özünüidarəsi, özünütəşkili və təkmilləşdirilməsi, nəhayət, özünün inkişafını təmin eləmək iqtidarında olduğu zaman çatmaq olar. Davamlı iqtisadi inkişaf anlayışı - elə bir milli iqtisadi inkişafı nəzərdə tutmuşdur ki, o müasir tələbləri ödəyərək gələcək nəsillərin tələbatının daha yaxşı ödəmək qabiliyyətləri azalmasın.

Nəzərdən kecirdiyimiz iqtisadi inkişafa iqtisadi cəhətdən baxdıqda aşağıda göstərilən cəhətləri xüsusilə qeyd etmək lazımdır: bu inkişaf gələcək nəsillərə əlavə xərc, borc yükləməyən inkişafdır. (borc, kredit və s.); nəsillərin arasında

xarici təsirləri azaldır; iqtisadi inkişaf perspektiv dövrə görə istehsal potensialının geniş təkrar istehsal prosesini; bu kapitaldan belə formada istifadə olunmasını nəzərdən kecirir ki, kapitalın məbləğinə toxunmadan təbii kapitaldan əldə olunan faizə görə təmin edilir.

Beləliklə, aparılan təhlillər belə qənaətə gəlməyə əsas verir ki, yaxın perspektivdə ölkəmizdə strateji yol xəritəsinin əsas hədəflərinə, habelə məqsədinə uygun olaraq ölkəmizdə davamlı inkişafın təmin edilməsi ölkəmizin post-neft mərhələsinə daxil olması ilə baglı yaranan yeni iqtisadi şərait, habelə yaxın gələcək ücün formalaşdırılan makroiqtisadi siyasət ölkəmizdə dayanıqlı fiskal siyasətin tətbiq edilməsini, ölkənin valyuta ehtiyatlarından, Neft Fondunun gəlirlərindən, büdcəyə olan köcürmələrin Qızıl qayda prinsiplərinə uygun olaraq həyata kecirilməsini Azərbaycanın qlobal dünya iqtisadiyyatına fəal inteqrasiyasını nəzərə alaraq effektiv monetar siyasətin reallaşdırılmasını, investisiya, biznes, sahibkarlıq mühitinin yaxşılaşdırılmasını, xüsusən yaxın perspektiv ücün reallaşdırılması nəzərdə tutulan makroiqtisadi siyasətdən ÜDM-in artırılmasında, insan kapitalının və əmək məhsuldarlıgını artırılmasına xüsusi diqqət verilməlidir.

Beləliklə, strateji yol xəritəsinə uygun Azərbaycanın konkret materialları əsasında aparılan təhlil və dəyərləndirmə belə qənaətə gəlməyə əsas verir ki, ümumən son on illikdə Azərbaycanda iqtisadi ikişafın bütün istiqamətləri üzrə əldə olunan ugurlu nəticələr göstərir ki, ölkəmizin davamlı inkişafa kecidi ücün kifayət qədər maddi əsaslar və zəmin yaradılmışdır.

## 1.3 Post-neft dövründə Azərbaycanda davamlı inkişaf modelinə kecidinin dünya təcrübəsi və onlardan Azərbaycanda istifadə imkanları

Öyrənilən dövrə əsasən uzun müddətli davamlı iqtisadi inkişafı təmin etmək ücün ilk öncə ona dörd meyar prizmasından baxmaq lazımdır ki, özü-özlüyündə bu meyarlar ümumilikdə təbii resursların təsnifatını, həmcinin onların təkrar istehsalını əsaslandırır: bərpa olunan resurslar; bərpa olunmayan resursların artımının azalması; resursların qənaətliliyinə əsasən yeni texnologiyanın tətbiqilə

tullantıların minimuma endirilməsi; resursun maksimum yekunda əldə olunması; ətraf mühitin çirklənməsinin iqtisadi-sosial yanaşmadan yol verilə bilən həddə saxlanılması və s.

Qeyd edilən bu meyarlar davamlı iqtisadi inkişaf konsepsiyasında hökmən nəzərə alınmalıdır. Onların sayını bir az da artırmaq olar: məsələn, Konfusi təliminə uyğun olaraq, effektiv iqtisadi siyasət, sivilizasiya faktorı, millətin daxili enerjisinin hərəkətə gətirilməsi, iqtisadi təfəkkür tərzi, və s. Ümumilikdə, davamlı iqtisadi inkişafa aid olan beynəlxalq sənəd, iqtisadi əsərlər və s. əsaslanaraq onun faktorlarını aşağıdakı kimi sistemləşdirmək olar. Təhlil onu da göstərir ki, davamlı iqtisadi inkişaf konsepsiyasının nəzəri və əməli nöqteyi-nəzərindən yaranması da özünün fəal mərhələsinə daxil olur. Hələ ki, indiyədək bu konsepsiyanın hamı tərəfindən qəbul edilmiş vahid bir modeli yoxdur.

Ümumən, bu qeyd edilənlərin qiymətləndirilməsi ilə iqtisadi inkişaf konsepsiyası formalaşarkən aşağıda qeyd edilən bəzi məsələlərə diqqət yetirmək lazımdır: milli və beynəlxalq iqtisadi inkişafın ahəngdarlığını təmin etmək üçün yeni baxış; müasir iqtisadi-inkişaf cəmiyyəti formalaşdıran fərqli və müqayisə edilməz elementlərin fəaliyyəti; zəif İEÖ-in sosial-iqtisadi tələbatını ödəmək ücün geniş təkrar istehsal prosesinin realizə edilməsi yolları; iri sahibkarlıq, həmcinin xüsusi sektorlar arasında münasibətlərin təkmilləşdirilməsi; gələcək nəsillərin inkişafına vacib resurslardan məhrum edilməyəcəyi prinsipi qoyulmalıdır.

Bütün bunlar belə qənaətə gəlməyə əsas verir ki, davamlı iqtisadi inkişaf konsepsiyasının iqtisadi əsasını cəmiyyətdə yaratmaqla yanaşı, sosial işsizliyi də aradan qaldırmaq mümkündür. Bu məlum olan iqtisadi konsepsiyaya əsaslanaraq onun əsas məqsədlərini belə göstərmək olar: dəyişən tələb və vəziyyətə uyğun olaraq yeni paradiqmaları hazırlamaq; uzun müddətli xərcləri nəzərə alaraq inkişafa rasional yanaşma; bərpa olunmayan resurslardan ağıllı formada istifadə etmə; fiziki inkişafın sosial, mədəni, iqtisadi, o cümlədən ekoloji tarazlığın balansını gözləmək; bütün uyğun sektorları, iştirakçıları bir məxrəcə gətirməyə imkan yaradan lokal, regional, Milli, qlobal səviyyədə vahid inkişaf strategiyaları.

2002 – ci ildə Ümumdünya Sammitində keçirilmiş davamlı iqtisadi inkişafa çatmagın üc əsas vəzifəsi irəli sürülür: yoxsulluğun aradan qaldırılması; təbii resursların qorunması; istehlak formalarının, qeyri-davamlı istehsalın məhdudlaşdırılması. Müxtəlif iqtisadi cərəyanlar və məktəblər davamlı iqtisadi inkişafa çatmağın vasitə və mexanizmlərini ayrı-ayrı şəkildə izah olunur. Belə ki, neoklassik iqtisadi nəzəriyyədə zaman keçdikcə davamlı iqtisadi inkişaf insanların sosial rifahının maksimum həddə çatdırılmasını qeyd edir. Yeni keynsçilər isə insan rifahının artırılmasının istehlakda əldə olunmuş faydalılığının maksimum həddə çatdırılmasında görür.

Ortodoksal - iqtisadi nəzəriyyənin əsasını təbii resursların effektiv bölgüsünün istehlakının əldə edilmiş faydalılığının maksimum həddə çatdırılması hesab edilir. Bunlarla əlaqəli H.Deli deyir ki, davamlı iqtisadi inkişafa catmagın yollarından da biri də təbii kapitala investisiya qoymaqdır. O, bərpa olunan və bərpa olunmayan resursları birləşdirən iki prinsipi əlaqələndirməyə çalışmışdır. Bərpa olunan resurslarla bağlı belə bir prinsip əsas götürülür ki, resurslardan istifadə davamlılıq yaradan həddə kimi məhdudlaşdırılır. Bərpa olunmayan resursların istismarından əldə olunan gəlirlər bərpa olunan təbii kapitala investisiya kimi yatırılmalıdır.

Onlardan fərqli neoklassiklər təbii kapitalın müdafiəsi ücün heç bir səbəb olmadığını deyirlər. Belə ki, Solon, Hatvirq qeyd edirlər ki, bərpa olunmayan resursların azalması ilə istehlak stabil qala və ya arta bilər, ancaq, əldə edilən renta təkrar istehsala yenidən investisiya olunmalıdır. Delinin yenidən investisiya qanunundan fərqli, bu qeyd olunan baxış təbii kapitalın xüsusi yığımının saxlanılmasını tələb edir. Təbii kapitalın özünəməxsus əhəmiyyəti vardırsa, o zaman neoklassik iqtisadi effektivlik davamlı iqtisadi inkişafa kifayət etmir.

Institusional cərəyanın nümayəndələrindən biri olan Toman bu qeyd olunan problemin həllilə bağlı qeyd etmişdir: - bəzi məsələlər öz həllini neoklassik bazar effektivliyi vasitəsilə tapa bilər, o cümlədən təbii ətraf mühitin fəaliyyətinin qorunması naminə «etibarlı minimal standart» yanaşmasının tətbiqini zəruri edir. Belə baxış ictimai qərarların qəbulunu, mənəvi qətiliyi, həm də sosial dəyərlərin

yaranmasını özündə birləşdirməyi dəyərləndirir. Göstərilən bu anlayışlar neoklassik modeldə öz ifadəsini tapmışdır. Belə ki, bu nəzəriyyəcilərə görə əsas etibarilə bazarr ən effektiv resurs bölüşdürücüsü oldugu üçün, onun bazar natamamlığı olduğu halda dövlətdən hərdən müdaxilələrin olması məqsədəuyğundur.

Azərbaycan Respublikasında 2006-2015 - ci illər üçün "Yoxsulluğun aşağı salınması, o cümlədən davamlı iqtisadi inkişaf üzrə dövlət proqrammı" təsdiq edilmişdir. Həmin proqramla 2015 – ci ilə kimi bu strategiyanın məqsəd və realizə edilməsi prinsipləri müəyyən olunmuş və bununla da Azərbaycan hökumətinə yardım göstərilmişdir. Həmcinin də qeyd edtmək lazımdır ki, yoxsulluq dünya ölkələrində olduğu kimi Respublikamızda da cəmiyyətimizin davamlı iqtisadi inkişafında əsaslı bir maneə kimi hesab olunur ki, o nöqteyi-nəzərdən hökumətin müəyyən etdiyi inkişaf strategiyasının önəmli məsələlərindən biri yoxsulluğun aşağı salınmasıdır. Azərbaycanın informasiya-kommunikasiya texnologiyalarının inkişafı respublikamızın davamlı iqtisadi inkişafının təmin olunması üçün vacib istiqamətlərdən biridir. Bildiyimiz kimi, qloballaşma şəraitində Dİİ-ın təmin olunmasının əsas istiqamətlərindən biri də təbii ətraf mühitin müdafiəsidir. Öz növbəsində də bu qeyd olunan problemin effektiv həlli üçün enerjinin davamlılıgının təmin olunması əsasdır.

Son dövrlərin araşdırmaları onu da göstərir ki, davamlı iqtisadi inkişafın və o cümlədən yoxsulluğun aşağı salınmasının vacib şərtlərindən iri də enerji təhlükəsizliyi olmuşdur. Bu məsələ ilə bağlı "Minilliyin inkişaf məqsədləri"ndə xüsusi olaraq nəzərə catdırılır ki, enerji xidmətlərinin miqdarını və eyni zamanda keyfiyyətini təkmilləşdirmədən davamlı iqtisadi inkişafa çatmaq mümkün deyildir. Eyni zamanda təbii mühitin dekrodasiyaya ugraması, enerji xidmətlərinə sahib olma imkanlarını məhdudlaşdırı ki, bu da yoxsul təbəqəyə çox mənfi təsir göstərir. Bu nəzərdən də "Azərbaycan Respublikasında 2005 – 2015 – ci illər üzrə yanacaq, o cümlədən energetika sektorunun inkişaf etdirilməsi ilə bağlı dövlət proqrammı", o cümlədən "Alternativ və bərpa oluna bilən enerji mənbələrindən istifadə olunma üzrə dövlət proqramı"nın rolu və əhəmiyyətini xüsusi vurgulamaq lazımdır.

Nəzərinizə catdırmaq lazımdır ki, Dünya Bankının (DB) davamlı iqtisadi inkişaf konsepsiyasının məqsəd və BMT-nin prinsipləri konkretdir və beş əsas aspekti sintez edir. Bunlara aşağıdakı istiqamətlər daxildir: "maliyyə kapitalı" - sərt makroiqtisadi planlaşdırma, həmcinin fiskal idarə olunma; "fiskal kapital" - maşın, elektrik stansiyaları, yolları, binaları, limanları və bir çox digər infrastruktur əmlakı; "təbii kapital" – təbii sərvətlərin; "insan kapitalı" – əmək bazarının qorunub saxlanmasına yaxşı səhiyyə və təhsil; "sosial kapital" – insanların bacarıq, o cümlədən qabiliyyətləri.

Məlumdur ki, respublikamızda yardım məqsədilə DB tərəfindən bir sıra layihələr -dəmir yol ticarəti, səhiyyə islahatı, su təchizatı, nəqliyyatının asanlaşdırılması, fermaların özəlləşdirilməsi, təhsil və s. davamlı iqtisadi inkişafı təmin etmək məqsədilə aşağıda konkret təkliflər verilmişdir: 1. Neft sənayesinin inkişafının effektiv idarə edilməsi; 2. Dövlətin neft - qaz potensialının dəyərləndirilməsi; 3. Yeni iş yerlərinin açılması; 4. Qeyri – neft sektorunun inkişaf etdirilməsi; 5. Sosial xidmət və infrastrukturun təkmilləşdirilməsi yolları.

Sonda isə bunu da söyləmək istəyirik ki, respublikamızda milli iqtisadiyyatın davamlı və dinamik rəqabətqabiliyyətini həmcinin də bu qeyd edilən sferalarda strateji istiqamət, potensial imkanlar, ehtiyatları aşkara cıxarmaq üçün respublikamızda iqtisadiyyatımızın beynəlxalq rəqabətqabiliyyətliliyi məsələlərinin qeyd olunan faktorlar, o cümlədən şərt və prizmalarından təhlil edilməsinin prioritet istiqamətləri müəyyən edilir. Bununla ölkəmizin, dövlətimizin, o cümlədən xalqımızın maraqlarını, məqsəd və vəzifələrini özündə realizə edilməsi o halda lazımi effekt verə bilər ki, o, nəzəriyyə-təcrübədə həll edilməsi nəzərdə tutulan məsələlər siyasi, sosial- hüquqi və mənəvi aspektləri nəzərə alaraq, bu zaman hər hansı bir problemə üstünlüyün verilməsi perspektivlik nəzərindən ziyanlı olar. Bu fikrimizi başqa sözlərlə ifadə etsək, Azərbaycan Respublikasında bu dövrdə irəli sürülən iqtisadi siyasət milli iqtisadiyyatın effektiv təkrar istehsal prosesinin yaranmasına yönəldilir. Bu qeyd edilənlərin qiymətləndirilməsi onu deməyə əsas verir ki, Azərbaycanda milli iqtisadiyyatımızı formalaşdıran və inkişaf etdirən elə obyektiv-çevik iqtisadi siyasət yürütmək

lazımdır ki, o qloballaşan dünyamızda milli səviyyədə yaranan proses və problemlərə vaxtında uyğunlaşmaq, tarazlıq yaratmaq, həm də respublikamızda davamlı iqtisadi inkişafın təmin olunmasına imkan vermiş olsun.

Məlumunuz olduğu kimi, 2002-ci ildə Yohanesbuqda kecirilən «Minilliyin inkişaf məqsədləri» adlı Sammitində iqtisadi inkişafın davamlılıgı, yəni müasir və gələcək nəsillərin maraq-mənafelərinə xidmət etməli və insanın bu inkişafda vacib məqsəd olması proqramı qəbul edilmişdir.

Bunlar da öz növbəsində davamlı iqtisadi inkişafın dəyərləndirilmə meyarlarını və indikatorlar sistemini makroiqtisadi səpkidə tədqiqinin zərurətə çevirir.

# II FƏSİL MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA İQTİSADİ ARTIMIN AMİLLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN GZİT TƏHLİLİ VƏ DƏYƏRLƏNDİRİLMƏSİ

## 2.1. Post-neft mərhələsində ölkəmizdə iqtisadi artımın zəif, güclü imkan və təhdidlərin sistemli təhlili və dəyərləndirilməsi

Müasir dövrün mövcud iqtisadi reallığı tələb edir ki, respublikamızın iqtisadi artım problemi xüsusi bir prinsip, meyar və yeni nəzəri prinsiplər əsasında əlbəttə ki, imkanlar daxilində öz həllini tapmalıdır. Bu, əsasən, müasir şəraitdə mənbələr, amillər, aparıcı qüvvələri, iqtisadi artım və nəhayət, sosial mühitin deformasiyasıdır. Bunu nəzərə alaraq perspektiv baxımdan bu problem "iqtisadi artımı tamamlamaq" deyil, "iqtisadi artımın bərpası" və "keyfiyyətin təminatı" kimi nəzərdə tutulmur. İkincisi, iqtisadi artım problemlərinin öyrənilməsi davamlı iqtisadi inkişaf dövrünün qanuniliyi və xüsusiyyətləri ilə müəyyən edilir.

Müasir dövürdə iqtisadi artım problemlərinin öyrənilməsinin əsas məqsədi bu dövrdə milli məhsulun artırılması və ya azaldılması dərəcəsini, onun iqtisadi amillərinin milli məhsulun dinamikasına təsirini araşdırmaqdır. Müəyyən bir müddət ərzində respublikanın inkişafının tendensiyaları və bunun əsasında dövlətin iqtisadi siyasəti əsasında işlər aparılır. Hazırda baş verən əsas problemlər makroiqtisadi məqsədlərə, eləcə də hazırlanan milli məhsulun cari hesaba əsaslanmasına və gələcək inkişaf üçün hansı hissəyə, onun iqtisadi vəziyyətinə görə necə istifadə oluna biləcəyinə əsaslanır. İqtisadiyyatın sabitləşməsinə paralel olaraq, qlobal bazarda rəqabət qabiliyyətini təmin etmək üçün istehsal vahidinə xərcləri aradan qaldırmaq üçün istehsal və dövlət-özəl tərəfdaşlıq strukturunu yaxşılaşdırmaq lazımdır. Ən vacib problemlərdən biri də mövcud problemlər çərçivəsində həyata keçirilən iqtisadi siyasət iqtisadi müstəqillik, iqtisadi təhlükəsizlik və gələcəyin reallaşmasına əsaslanır, bu da yalnız makroiqtisadi məqsədlərin həyata keçirilməsinə deyil, həm də ölkənin daha yaxşı həyata keçirilməsi üçün maddi bazanın yaradılmasına gətirib çıxaracaqdır . (Şəkərəliyev A.Ş., Bakı 2011, səh 44)

Müasir dövrdə iqtisadi ədəbiyyatda iqtisadi artım problemi iki müxtəlif yanaşma yaratmışdır. İqtisadi böyümə problemlərinin məqsədindən asılı olaraq müxtəlif fənlər üzrə təhlil edilir. Məsələn, Robert Solon iqtisadi inkişaf modeli, böyümə təsirini, əhalinin artımını və istehsalda texniki irəliləyişin müəyyənləşdirilməsinə yönəldilmişdir. Model, əhalinin həyat səviyyəsinə təsir edən amilləri müəyyənləşdirir. Ölkə prezidenti cənab İlham Əliyevin 16.03.2016-cı ildə «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi»ndə və bu sərəncama uyğun 6.12.2016-cı ildə "11 istiqamət üzrə strateji inkişaf planı"nın hazırlanması ölkədəki fiskal siyasətin xarakter və iqtisadi inkişaf istiqamətini müəyyən etmək mümkündür. Bu sərəncamda yaxın gələcəkdə, yəni 2016 - 2020-ci və 2016 – 2025-ci illəri əhatə edən strateji yol xəritəsində prioritet istiqamət kimi aşağıda qeyd olunanlar nəzərdə tutulmuşdur: Milli iqtisadiyyatın SWOT təhlilinin üstün tərəfləri; bu təhlilin zəif tərəfləri; İmkanları; Inkişafın parametrləri təhlükə və təhdidlər nəzərə alınaraq proqnozlaşdırılıb.

II - Milli iqtisadiyyatın $360^0$ diaqnostika əsasında təkrar istehsal mərhələsinə uyğun bütövlükdə: iqtisadi inkişaf; istehsal; bölgü; mübadilə və istehlak üzrə prosesləri təhlil olunur və davamlı inkişaf baxımından dəyərləndirilməlidir.

III -Yaxın gələcəkdə milli iqtisadiyyatın rəqabətqabiliyyətinin artırılması vəzifəsi qarşıya qoyulmuşdur. Rəqabət qabiliyyətliliyinin artırılması subyektiv amillərlə birgə, investisiyaların axını və innovasiya yönümlü olmasını tələb edir.

IV - strateji yol xəritəsində xüsusi bir istiqamət kimi səmərəliliyin yüksəldilməsi qarşıya qoyulur.

V- qeyri-neft sektorunun inkişafı və o məhsulların ixracını artırmaq;

VI -iqtisadiyyatın inklyuzivliyini artırmaq, onun sosial yönümlülüyünü gücləndirmək, ölkənin potensialından və müstəqilliyindən sosial qurumların faydalanması üçün əlverişli mühüt yaradılması.

VII- yol xəritəsində ümumən, səkkiz aparıcı sahənin inkişafı nəzərdə tutulmuşdur.

Bütün bu qeyd olunan prinsiplərə uygun ölkə prezidentinin 2016.12.06 tarixli başqa bir sərəncamında 11 proqram hazırlanmışdır. Azərbaycanın iqtisadi

vəziyyəti beynəlxalq reytinq agentləri tərəfindən də “+” dəyərləndirilir. Belə ki, “Moody’s” Beynəlxalq Reytinq Agentliyi Azərbaycanın uzunmüddətli kredit reytinqi üzrə proqnozu stabil kimi dəyərləndirilmişdir. Respublikamız müstəqillik əldə etdikdən sonra ən əsas problemlərdən olan siyasi və iqtisadi müstəqilliyimizi təmin etməklə effektiv fəaliyyət göstərən milli iqtisadiyyatı hazırlamaqdır. Məlum olduğu kimi, bu məqsədlərin realizə edilməsinin ilk mərhələsi Azərbaycanda sistem böhranı ilə müşahidə olunmuşdur, lakin müəyyən səviyyədə makroiqtisadi-siyasi stabillik və iqtisadi artıma nail olmuşdur. Həmcinin onu da xüsusi olaraq vurgulamaq lazımdır ki, sosial-iqtisadi inkişafdakı problemlər Azərbaycana erməni təcavüzü nəticəsində torpaqların 20 faizinin işğalı və bundan meydana cıxan problemlərlə kəskin şəkil aldı. Respublikamızda son zamanlarda lazımı qədər iqtisadi-sosial, elmi-texniki, institusional-hüquqi baza, kadr potensialı və start kapitalı yaradılmışdır. Həmin dövr ərzində dövlətimizin iqtisadiyyatı möhkəmlənmiş, onun inkişaf qabiliyyəti formalaşdırılmışdır ki, bu da ölkənin iri miqyaslı transmilli proqram və layihələrin uğurla yerinə yetirilməsinə imkan yaradır.

Bu dövrdə yerinə yetirilən iqtisadi-sosial strategiya ölkənin təbii və insan resursları iqtisadi inkişafa yönəldilərək, effektivlik prinsipi qorunmaqla həyata kecirilən islahatlar iqtisadiyyatın yeni mərhələyə - davamlı iqtisadi inkişafa keçidlə bağlı şərtlər formalaşdırmışdır. Bunların müqabilində maliyyə durumu möhkəmlənmişdir. Təhlildən görünür ki, ölkəmizin davamlı iqtisadi inkişaf (Dİİ) modelinə keçidi: onun dünya iqtisadiyyatındakı yeri, rolu, sosial-iqtisadi potensialı, həm də onların artırılması hər şeydən əvvəl mövcud olan milli resurslar balansı və sərvəti ilə müəyyənləşdirilir. Araşdırdıgımız iqtisadi ədəbiyyatlara istinad onu qeyd etməyə əsas verir ki, Respublikamızın davamlı iqtisadi inkişaf modelinə keçidi ücün lazım olan miqdarda əlverişli imkan, faktor və o cümlədən potensial vardır. Bunları belə təsnifləşdirmək olar: iqtisadi – coğrafi və geosiyasi mövqeyi; nəqliyyat, həmcinin başqa kommunikasi sistemlərinin, istehsal infrastrukturunun inkişafı; torpaq, su, lazımi faydalı qazıntı və meşə resursları; əhalinin ümumtəhsil səviyyəsinin yüksəldilməsi, əmək ehtiyatları balansı, çoxistiqamətli sənaye

kompleksləri; elmi-texniki potensial; gücləndirilmiş tikinti bazası; beynəlxalq xarici-iqtisadi əlaqələr. Respublikamız özünün milli maraq və mənafelərini gözləməklə bütün ölkələrlə əməkdaşlığı, ən başlıcası isə davamlı iqtisadi inkişafa keçidlə bağlı ümumi regional sosial – iqtisadi və ekoloji problemlərin həlli yolunda fəaliyyətini daim artırır. Məlumunuzdur ki, sosial-iqtisadi inkişafın dayanıqlıq və davamlılığı əhali sayı, onun keyfiyyəti, əmək potensialı və yüksək ixtisaslı kadr strukturunun balanslaşdırılmasından, işçi qüvvəsinin tələb-təklif nisbətindən, əmək bazarında mövcud olan rəqabətqabiliyyətliliyindən asılıdır.

Əmək miqrasiyası cox vaxt kənddən şəhərə istiqamətlənmişdir. Xarici əmək miqrasiyasının tənzimlənməsi ücün ilk öncə ölkənin miqrasiya axını azaldılmalı, ölkənin intellektual potensialının qorunması ücün tədbirləri yerinə yetirmək lazımdır. DİI-ın təmininin əsas resurs bazası əmək resurslarıdır. Bu nöqteyi-nəzərdən Azərbaycan kifayət qədər əmək potensialına malikdir. Ölkə iqtisadiyyatının strukturu öz əksini əhalinin məşğulluğunda ifadə edir. Məşğulluq problemini həll etmək üçün gələcəkdə bu sahədə dövlətin siyasəti iqtisadiyyatın tələbinə uygun olan məşğulluğun təmininə dair tədbirlərin realizəsi olmalıdır. Respublikamızın xammal ehtiyatı davamlı iqtisadi inkişafın, həmcinin istehsalın inkişafına baza rolunu oynayır ki, bu da qloballaşmada xammalın əhəmiyyəti rolunu artırır. Elə bu səbəbdəndir ki, yerin təkindəki resurslar ümumi təbii ehtiyatların tərkib hissəsi olmaqla yanaşı iqtisadi-sosial və siyasi müstəqilliyimizi müəyyənləşdirən faktorlardandır.

Respublikamızın iqtisadi potensialını artırmaq üçün onun ərazisində yerləşən kəşfiyyatı sona catmış müxtəlif növ faydalı qazıntıların resurslarından effektiv surətdə istifadəetmə, dağ-mədən-emal sənayesinin inkişaf etdirilməsindən birbaşa asılıdır. Bunlar hamısı, özü-özlüyündə iqtisadi fəaliyyətin bütün sahələrində Respublikadakı elmi-texniki potensial, onun effektiv realizəsi imkanları, şərtləri və innovasiyası baxımından təkmilləşdirməsinə ehtiyac duyulur. Təcrübələr onu da deməyə əsas verir ki, davamlı sosial-iqtisadi inkişafa ancaq innovasiya fəaliyyətinin sürətləndirilməsi ilə nail olmaq olar. Ümumilikdə, AR-də davamlı

iqtisadi inkişafın dəyərləndirilməsi sosial və iqtisadi inkişafın makroiqtisadi indikatorlarının dinamikasının təhlili maraq doğurur.

**Qrafik 1. Ümumi Daxili Məhsulun neft və qeyri-neft sektoru üzrə payı**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/system_nat_accounts/(11.02.2019)

Təhlil göstərir ki, 2000-2017-ci illərdə neft-qaz sektorunda ÜDM-in səviyyəsi 18,24 dəfə artaraq 25,8 mily. man. çatmışdır. Qeyri-neft sektorunda isə ÜDM-in səviyyəsi 13,09 dəfə artaraq 40,3 mily manat olmuşdur.

**Cədvəl 1. İqtisadiyyatın neft və qeyri-neft bölmələrində ÜDM**

| | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2017 2000 | 2017 2005 | 2017 2010 | 2017 2015 | 2017 2016 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ümumi daxili məhsul - cəmi | 52,1 | 54,7 | 58,2 | 59,0 | 54,4 | 60,4 | 70,1 | 14,87 | 5,60 | 1,65 | 1,29 | 1,16 |
| neft-qaz sektoru | 25,8 | 24,5 | 23,8 | 21,4 | 15,4 | 19,6 | 25,0 | 18,24 | 4,53 | 1,22 | 1,63 | 1,28 |
| qeyri-neft sektoru | 23,2 | 26,9 | 30,5 | 33,2 | 34,1 | 36,0 | 40,0 | 13,09 | 6,61 | 2,09 | 1,17 | 1,11 |
| məhsula və idxala xalis vergilər | 3,1 | 3,4 | 3,9 | 4,4 | 4,9 | 4,9 | 5,1 | 17,59 | 5,41 | 1,78 | 1,05 | 1,04 |

**Mənbə:** Cədvəl Azərbaycan Respublikasının spesifik göstəricilərində 2018-ci il əsasında təhlil edilmişdir. http://www.stat.gov.az 2018

Sosial-iqtisadi inkişafın sürətləndirilməsində əsas məqsəd: infrastruktur sektorlarının inkişafı, investisiyanın qeyri-neft sektoruna yönəldilməsi, regionların inkişafının stimullaşması, ölkədə investisiyanınn sosial istiqamətinin gücləndirilməsidir. Bunlarla birgə, dövlətin investisiya proqramının cərcivəsində layihələrin icrası barədə sifarişçilərdən qəbul edilmiş monitorinq hesabatları

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi tərəfindən araşdırılaraq tədqiq olunur, yerlərdə layihələrin icrasına baxılır, nəticələr təhlil olunur. İqtisadiyyatımızın neftdən asılılığını azaltmaq üçün xarici iqtisadi əlaqələrin genişləndirilməsi dünyanın iqtisadi sistemə inteqrasiyasını təmin etməkdə “+” şərait yaratmışdır. İdxal əvəz olunması, həmcinin özünütəminetmənin artım siyasəti yeni texnologiyalarla təchiz olunan istehsal sahələrinin sayının coxalması, müasir dövrün tələblərinə uyğun olan yeni sənaye komplekslərinin, həm də keyfiyyətli, rəqabətqabiliyyətli yeni növ məhsulun istehsalı ilə nəticələnir. Bu məqsədlə, respublikamızda yeni ticari tərəfdaşlarla iqtisadi - ticarət əlaqələri geniş inkişaf etdirilməli, həmcinin bu sferalarda yeni-yeni münasibətlərin yaradılması üçün tədbirlər həyata keçirir.

**Qrafik 2. ÜDM: qeyri-dövlət bölməsinin payı**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi https://www.stat.gov.az(11.02.2019)

Belə ki, dövlətimizin müxtəlif sfera və ticarət əməkdaşlıqlarının yüksək səviyyədə inkişaf etdirilməsinə ramən tərəflərdaşların bir-birilə ticarət potensialının tam formada istifadə olunması üçün sahibkarlar ilə rəsmi və işgüzar səfərlər, çox saylı biznes forum və sərgilər təşkil olunur. Qeyri -neft sahələrinin inkişaf etdirilməsi, ölkəmizin ixrac potensialından effektiv istifadə, yeni bazarlara çıxmaq üçün imkanların artırılmasında işlər davam etdirilir. Xarici və daxili ticarətə uyğun təhlil aparılmış, bir cox ölkələrlə 2 tərəfli iqtisadi ticari əlaqələri, onun strukturu və dinamikası təhlil olunur, o cümlədən bu qeydlərə əsaslanaraq arayışlar hazırlanır.

**Cədvəl 2. Azərbaycan Respublikası 1995-2017-ci illər ərzində ÜDM-in sahə quruluşu**

| | ÜDM | Sənaye | Tikinti | Kənd təsərrüfatı | Ticarət və xidmətlər | Nəqliyyat | Rabitə | Sosial və sair xidmətlər |
|---|---|---|---|---|---|---|---|---|
| **1995** | **30,3** | 5,5 | 79,0 | 61,5 | 82,4 | 4,6 | 10,0 | 24,1 |
| **2000** | **70,8** | 48,4 | 63,5 | 99,0 | 98,3 | 62,6 | 57,8 | 78,8 |
| **2005** | **77,8** | 84,5 | 90,4 | 97,8 | 97,8 | 37,5 | 80,2 | 31,8 |
| **2010** | **81,7** | 87,4 | 72,0 | 99,7 | 99,2 | 75,3 | 78,6 | 47,0 |
| **2015** | **81,2** | 83,0 | 84,5 | 99,8 | 99,6 | 81,7 | 81,0 | 57,8 |
| **2017** | **83,8** | 87,9 | 84,6 | 99,9 | 99,7 | 82,4 | 81,2 | 56,1 |
| **2017/1995** | 2,77 | 15,98 | 1,07 | 1,62 | 1,21 | 17,91 | 8,12 | 2,33 |

**Mənbə:** Cədvəl müəllif tərəfindən Azərbaycanın Statistik göstəriciləri 2000-2017-ci illər məlumatları əsasında tərtib olunmuşdur. http://www.stat.gov.az 2018

Magistr dissertasiyasında tədqiq olunan illər ərzində ayrı-ayrı sahələr üzrə ÜDM-in payı qeyd olunan kimi olmuşdur: sənayedə Ümumi Daxili Məhsul-15,98, tikinti-1,07, kənd təsərrüfatı-1,62, ticarət-xidmət-1,21, nəqliyyat-17,91, rabitə-8,12, sosial və s xidmətlər-2,33 dəfə artıb. Araşdırılan dövrdə əhali gəlirləri 2017-ci ildə 1997-ci illə müqayisədə 19,88 dəfə artmışdır. Əhalinin $ ilə olan gəliri 2017-ci ildə 1997-ci ilə nisbətən 9,21 dəfə artaraq 3101,9 mil. $-dan 28564,8 mily $-a çatıb. Adambaşına əhali gəliri manatla 2017-ci ildə 1997-ci ilə nisbətən 15,76 dəfə coxalaraq 320,5 man-dan 5050,5 man olmuşdur. Adambaşına əhalinin $ ilə gəliri isə 2017-ci ildə 1997-ci ilə nisbətdə 7,30 dəfə artaraq 401,9 $-dan 2934,5 mil $-a çatıb.

**Qrafik 3. Əhalinin xərcləri əvvəlki ilə nisbətən**




**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/system_nat_accounts/(11.02.2019)

Təhlil göstərir ki, əhali gəlirinin strukturuna əsasən onların artm dinamikasına nəzər yetirsək, görərik ki, ilkin gəlirlər 2017-ci ildə 2005-ci illə nisbətdə 6,91 dəfə artmış, yəni 6 394,2 milyon man-dan 44200,7 mily man olmuşdur. İşçilərə əmək ödənişi 2017-ci ildə 2005-ci illə müqayisədə 4,19 dəfə artmış, yəni 2 954,8 mily man-dan 12 393,3 mily man-a çatıb. Sahibkarlıq fəaliyyətindən əldə edilən gəlirlər 2017-dən 2005-ədək 9 dəfə artaraq 3432,6 mily man 30902,1 mily man. olub.

**Qrafik 4. Neft və qeyri-neft sektorları üzrə əsas kapitala yönəldilmiş investisiyalar**




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, https://www.stat.gov.az/source/system_nat_accounts/(11.02.2019)

Qeyri-neft sferasında xarici-ticarət dinamikası, ixrac-idxalın tərkibi, coğrafi strukturunun təhlili aparılmış, idxal və ixracın sektoral təhlili, idxalı və ya ixracı artıb-azalan qeyri-neft məhsulu, belə artıb-azalmanın əsas səbəbləri müəyyənləşdirilərək ixracatçılar, habelə aidiyyəti strukturlardan başlıca məlumatların toplanaraq təhlillərdə öz əksini tapmışdır. Kənd təsərrüfatı məhsulları üzrə Respublikamızın ixrac məhsulları, onların bazarlarda payı, bu göstərilən bazarlarda rəqib ölkələr, bu məhsulların dünya üzrə aparıcı idxalçı ölkələrlə əlaqəli araşdırmalar aparılır. Iqtisadiyyatımıza Gömrük İttifaqının potensial “+” o cümlədən “-” təsirləri araşdırılmışdır. Bu qeyd edilən çərçivələrdə, ticarət və xidmət sahələrində əldə edilmiş bütün nailiyyətlər birbaşa olaraq əhalinin rifah halının, həmcinin gəlirlərin artımı ilə bağlıdır. Beləliklə qeyd etməliyik ki, əhali pul gəlirlərinin artımı pərakəndə əmtəə və xidmətlərin dövriyyəsinin artımına səbəb olan əsas faktdır.

## 2.2. Post-neft mərhələsində qeyri-neft sektorunun və onun ixracının artırılması iqtisadi artımın mühüm mənbəyi kimi

Respublikamızın qloballaşan şəraitdə daxili və xarici iqtisadi münasibətlərdə struktur problemlərinin xüsusiyyətləri makroiqtisadi stabilliyin təminilə əlaqəli qloballaşan dünya iqtisadiyyatındakı proseslərlə birgə rəqabətin üstünlüyünün realizəsi imkanilə və ya ölkənin iqtisadi inkişaf modelilə müəyyən olunur.

Onu da göstərmək yerinə düşər ki, qloballaşma şəraitində dövlətimiz elə inkişaf səviyyəsinə catıb ki, burada gələcək iqtisadi inkişaf əhəmiyyətli dərəcədə ölkənin yerinə yetirdiyi struktur siyasətinin xüsusiyyəti və onun effektivliliyi ilə sıx əlaqədardır. Bu zaman onu da qeyd etmək yerinə düşərdi ki, xalq təsərrüfatının quruluşunun dəyişiklikləri Elmi Texniki Tərəqqinin sürətlənməsi ilə birbaşa asılılıqda olan prosesdir. Cünki, ETT-də məhsulların resurs tutumlarının azalması müşahidə olunur ki, bu qeyd edilən də əgər bir tərəfdən iqtisadiyyatın makroiqtisadi nisbətinin təkmilləşməsinin maddi əsasıdırsa, başqa tərəfdən isə onun sahə-texnoloji, ərazi və təkrar istehsal quruluşunun yaranması Elmi Texniki Tərəqqinin sürətləndirilməsinin əsas şərtidir. Bütün bu qeyd olunanlar yeni yaranmış müstəqil dövlətimizin iqtisadiyyatının hal-hazırkı dövrdəki quruluşunu, o cümlədən ET-nin potensialının müəyyənləşməsini və qiymətləndirilməsini zəruri hesab edir. Onların hamısının qiymətləndirilməsi ilə yanaşı AR-də elə ET və ya struktur siyasəti işləyib hazırlamaq lazımdır ki, perspektiv dövrdə iqtisadi artımın mümkün olan imkanlarına məhdudiyyət olmasın. Elə bu səbəbdəndir ki, struktur siyasət - iqtisadi subyektin fəaliyyətinin həm hüquqi, həm də institusional əsasının yaranması, uzunmüddətli dövr üçün iqtisadi artıma şərait yaranması, istehsalın faktorlarının istifadə edilməsi effektinin artmasına, rəqabətli sferalarda resursların bölgüsünün effektliliyinin artmasına yönəldilmiş tədbirlər əks olunur. (Əlirzayev Ə.Q, Bakı, “Adiloğlu”, 2005, səh 33)

Qloballaşma şəraitində struktur siyasəti İEÖ fərqli olaraq daha geniş və çoxşaxəli məsələlərin həllini zəruri edir. Bunların hamısı öz-özlüyündə dövlətin yürütdüyü struktur siyasətin realizasiyası dövlətdə iqtisadi inkişaf istiqamətinin müəyyənləşməsini, sahənin quruluş təkmilləşməsini, istehlakın və yığımın

nisbətinin optimallaşması problemlərinin nəzəri əsasının araşdırılmasını zərurətə çevirdi. Qloballaşmada dövlətin struktur dəyişikliklərə təsiri bazarın əsas tələbləri nəzərə almalıdır. Təcrübədən göründüyü kimi, xalis bazar mexanizmlərinə əsaslanaraq struktur irəliləyişlər etmək mümkün deyildir. Həyata kecirilən nəzəri araşdırmalar iqtisadi strukturun dəyişikliyinin xüsusiyyətlərinə mühüm təsir edən bazar ünsürlərini belə sistemləşdirir: məhsul istehsalı və xidmətlərə daxili tədiyyə qabiliyyətli tələbin olması; rəqabət; işci miqrasiyası; kapitalın sferalar və regionlararası axını; resursların qiymətləri və əlverişli olması; inhisar mənfəəti; bazarın əmtəə və xidmətlərlə təminatı.

Qloballaşma dövründə Milli iqtisadiyyatın dayanıqlılıgını və davamlı iqtisadi inkişafını təmin etmək ücün bu mərhələdə yerinə yetirilən struktur siyasət ilə birbaşa əlaqəlidir. Ölkəmizdə yerinə yetirilən iqtisadi siyasətin əsas tərkib hissələrindən biri olan dövlətin struktur siyasəti çox şaxəli problem olmaqla yanaşı, həm də o, qloballaşmada Milli iqtisadiyyatın iqtisadi sosial, institusional dəyişikliklərilə bağlı olan məsələlərin qarşılıqlı əlaqə və asılılıqla həllini zəruri edir. Milli iqtisadiyyatımızın təkrar istehsal quruluşu təhlililə bağlı olması onun strukturunun davamlı iqtisadi inkişaf baxımından qiymətləndirilməsinin mühüm istiqamətidir. Onu da demək olar ki, təkrar istehsal nəzəriyyəsinə görə iqtisadi strukturun təhlili: Milli iqtisadiyyatın tərkibinə; inkişafın qanunauyğunluqlarına; başlıca elementlərinə; onların dəyişmə və həmcinin təkmilləşməsinə birbaşa təsirini göstərən faktorları müəyyənləşdirmək imkanı verir.

Ölkə iqtisadiyyatın təkrar istehsalının strukturu daima yeniləşən təkrar istehsaldır. Bunlar öz növbəsində iqtisadiyyatın struktur asılılıgını, özünüidarəetmə mexanizmlərini, təkrar istehsalın özünütəşkilini, özünüinkişaf etdirmək faktorların yaradılması proseslərini əməli baxımdan dəyərləndirməyə imkan yaradır. İstehlakdan istehlaka, resurs istehlakından son məhsula qədər insanların niyyətlərini təşkil edən əsas amillər qarşılıqlı geri çevrilmənin kompleks sistemini praktiki baxımdan qiymətləndirməkdir.

İqtisadiyyatın emaldan istifadəsi onun əsas struktur əlaqələri arasında iqtisadi proses dövrünün hüquqi çərçivəsinin inkişafında rol oynayan təbii xüsusiyyətləri,

